# Bakıda lüks avtomobili yol polisinin üstünə sürdülər




**Bakıda qaydaları kobud şəkildə pozan sürücülərin videosu ərazidəki təhlükəsiz şəhər kamerasına düşüb.**

Avtosfer.az xəbər verir ki, 90-TG-550 qeydiyyat nişanlı "Range Rover" markalı avtomobilin sürücüsü martın 8-də paytaxtın Neftçilər prospektində (Bakı İdman Sarayanın qarşısında) əks istiqamətə çıxaraq nəqliyyat vasitəsini qarşıdan gələn maşınların üzərinə sürüb. Ərazidə xidmətdə olan yol polisi əməkdaşı avtomobilin qarşısını kəsərkən, sürücü və sərnişin onunla mübahisə etməyə başlayıb. Qarşıda əyləşən xanım sərnişinin qərəzli hərəkətləri kamera görüntülərində aydın şəkildə əks olunub.

# Jovkva: "Zelenski Putinlə danışmağa hazırdır"



**Ukrayna Prezidenti Volodimir Zelenski beynəlxalq vasitəçilərlə Rusiya Prezidenti Vladimir Putinlə birbaşa danışmağa hazırdır,**

APA "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə Ukarayna Prezidentinin ofisinin rəhbəri İqor Jovkva bildirib. "Prezident beynəlxalq vasitəçilərlə birbaşa Putinlə danışmağa hazırdır, lakin biz bu danışıqlar zamanı Rusiyanın mövqeyində heç bir güzəştə getməyəcəyik", - deyə Jovkva CNN telekanalına müsahibəsində bildirib.


№ 45 (5567), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 mart 2022-ci il (cümə)




# Fransa Prezidenti: "Müharibə gedən ölkənin Aİ-yə qəbulu mümkün deyil"

**Ukraynanın Avropa İttifaqına (Aİ) qəbulu proseduruna başlamaq mümkün deyil.**

"Report" xarici mətbuata istinadən xəbər verir ki, bunu Fransa Prezidenti Emmanuel Makron Versalda Aİ liderlərinin sammitindən əvvəl əvvəl jurnalistlərə bildirib.

"Bildiyiniz kimi, üç ölkə - Ukrayna, Moldova və Gürcüstan Avropa İttifaqına daxil olmaq üçün rəsmi ərizə veriblər. Biz bu axşam onları müzakirə edəcəyik. Hesab edirəm ki, hazırkı dövrdə diqqətli olmalıyıq. Bu gün müharibə gedən ölkəyə Aİ-yə daxil olmaq üçün proseduru aça bilərikmi? Düşünmürəm", - Makron qeyd edib.



## Ankarada Azərbaycan və Türkiyə prezidentləri arasında görüş keçirilib

Liderlər Ermənistanla münasibətlərin normallaşdırılmasına dair fikir mübadiləsi aparıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

Azərtac xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlətimizin başçısını qarşıladı.

(səh.2)

## Ərdoğan Co Baydenlə Ukraynadakı vəziyyəti müzakirə edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Co Baydenlə telefonla danışıb.**

Bu barədə Türkiyə Prezidenti Administrasiyası məlumat yayıb. Danışıq zamanı regional hadisələr, o cümlədən Rusiya-Ukrayna hadisələri, Türkiyə-ABŞ münasibətləri müzakirə edilib.

Ərdoğan Türkiyə-Rusiya-Ukrayna xarici işlər nazirləri toplantısının Antalyada təşkil edilməsinin də özlüyündə diplomatik bir qələbə olduğunu vurğulayıb.

# Antalya Zirvəsində anlaşma alınmadı




**Sergey Lavrov:**
"Biz silahsızlaşdırılmış, rus dilini qadağan etməyən Ukrayna istəyirik"

**Dmitri Kuleba:**
"Rusiya atəşkəs istəmir, Ukrayna təslim olmayacaq"

**Dünən Rusiyanın və Ukraynanın xarici işlər nazirləri Sergey Lavrov və Dmitri Kuleba arasında Türkiyənin vasitəçiliyi ilə Antalyada görüş baş tutub.**

Türkiyə tərəfinin ilkin mərhələdə Ukraynada daimi atəşkəs üçün səy göstərdiyi görüşdən sonra ilk açıqlama Dmitri Kulebadan gəlib. Ukraynalı nazir bildirib ki, təxminən bir saat yarım davam edən danışıqlarda atəşkəslə bağlı heç bir irəliləyiş əldə olunmayıb. Çavuşoğluna bu məsələdə göstərdiyi səylərə görə təşəkkür edən Kuleba "bu gün bir həll yolu tapılmasa da, ölkəsindəki müharibəni bitirmək üçün bu cür danışıqları davam etdirəcəklərini" deyib. Sergey Lavrov da Ukrayna böhranı altında yatan problemlərin həlli üçün hər cür təşəbbüsləri dəstəklədiklərini və danışıqların yerini heç nəyin verməyəcəyini bildirib. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiya ilə Ukrayna arasında diplomatiyanın işləməsi üçün səylərini davam etdirəcəyini söyləyib.

(səh.3)

# Çörəyin bahalaşması gözlənilləndir

Çünki Rusiya taxılın qiymətini artırmağa məcbur olacaq



**Ukraynadakı vəziyyət artıq bu il dünyada ərzaq böhranına səbəb ola bilər. Fransanın Kənd təsərrüfatı və ərzaq naziri Julyen Denormandi bununla bağlı öz narahatçılığını ifadə edib.**

O deyib ki, baş verən hadisələr qiymətlərin artımına gətirib çıxara bilər ki, bu da mal-qara yeminə təsir göstərəcək.

"Aralıq dənizi rayonunda Rusiya və Ukraynadan olan buğda ixracından asılı olan çox sayda ölkə yerləşir", - deyə Denormandi qeyd edib.

Onun sözlərinə görə, Qətər, Ruanda, Qırğızıstan və Misir kimi ölkələrin Rusiyadan olan buğda tədarükündən 80 faiz, Türkiyə isə 70 faiz asılıdır.

(səh.5)



## Ermənistanın xarici işlər naziri Türkiyəyə gedir

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyəyə gedir.**

APA-nın xəbərinə görə, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vahan Hunanyan "Twitter"də bildirib.

Ermənistan xarici işlər naziri 11-13 mart tarixlərində Antalya Diplomatik Forumunda iştirak etmək üçün Antalyaya yola düşəcək.

"Onun bir sıra həmkarlarla görüşləri planlaşdırılır", - mətbuat katibi qeyd edib.

## Daha 270 nəfər koronavirusa yoluxub

17 nəfər vəfat edib, 564 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 270 yoluxma faktı qeydə alınıb, 564 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 17 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 790 153 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 777 960 nəfər müalicə olunaraq sağalıb, 9 575 nəfər vəfat edib. Aktiv xəstə sayı 2 618 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 356, bu günə qədər isə ümumilikdə 6 617 758 test icra olunub.

## Bakıda su kanalında kişi meyiti tapılıb



**Bakıda su kanalında kişi meyiti tapılıb.**

"Şərq" Fövqəladə Hallar Nazirliyinə (FHN) istinadən xəbər verir ki, 112 xidmətinə Sabunçu rayonunda, su kanalında aşkarlanan 1 nəfərin meyitinin götürülməsinə köməklik göstərilməsi üçün müraciət daxil olub. Müraciətlə əlaqədar FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin müvafiq xilasetmə qüvvələri göstərilən ünvana cəlb olunub.

*Görülən tədbirlər nəticəsində 1969-cu il təvəllüdlü Mehdiyev Məhəmməd Nəriman oğlunun meyiti kanaldan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.*



## "Qərb Ukrayna üzərindən Moskvanı tələyə saldı"

Yücel Karaüz: "Rusiyaya tətbiq edilən sanksiyalara qoşulmaq üçün Qərb ölkələri Ankaraya təzyiqlər edir"

(səh.3)

## "Türkiyə-İsrail əlaqələrinin normallaşmasında Azərbaycanın rolu böyükdür"



Arye Qut: "Prezident Hersoqun Türkiyəyə səfəri Təl-Əvivin Bakı və Ankara ilə strateji əməkdaşlığına böyük təkan verəcək"

(səh.5)

# Bakı-Ankara tandemi müdafiə xətti yaradır

## Azərbaycanla Türkiyə hərbi əməkdaşlığı daha dərin qatlara endirmək niyyətindədir



“Azərbaycanla Türkiyə diplomatik-siyasi səylərini səfərbər edir ki, Rusiya-Ukrayna müharibəsi sülh yolu ilə tənzimlənsin”

**Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə işgüzar səfər edib. Ölkə rəhbərinin martın 11-13-də Antalyada keçiriləcək Diplomatiya Forumunda iştirak edəcəyi deyilir. Dövlət başçısı İlham Əliyevlə türkiyəli həmkarı arasında görüş də keçirilib.**

Ekspertlərin fikrincə, son günlər dünyada və regionda baş verən hadisələr fonunda bu görüş olduqca vacibdir. Analitiklərə görə, ölkə başçıları arasında müzakirə edilən mövzulardan biri şübhəsiz ki, mövcud Ukrayna-Rusiya müharibəsi ilə bağlıdır.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, dövlət başçısı İlham Əliyevin səfəri postsovet regionunun xüsusi həssas zəminlərə ayaq basdığı zamana təsadüf edir.** Bu mənada dövlət başçısının keçirəcəyi görüşlərdə Rusiya-Ukrayna münaqişəsinin həllinə dair müzakirələr aparılacağı gözlənilir: ”Azərbaycanla Türkiyə diplomatik-siyasi səylərini səfərbər edir ki, Rusiya-Ukrayna müharibəsi sülh yolu ilə tənzimlənsin. Ancaq Ukrayna müharibəsinin nəticələri nə olursa-olsun Bakı-Ankara ikilisi birgə strateji müdafiə qabiliyyətini gücləndirmək niyyətindən vaz keçməyəcək. Azərbaycanla Türkiyənin münasibətləri strateji müttəfiqlikdən də üstün mahiyyət və xarakterə malikdir. Şuşa Bəyannaməsi isə bu müttəfiqliyi əbədi edən sənədə çevrildi. Azərbaycanla Türkiyə qarşılıqlı müdafiə mexanizmləri ilə bir-birinə həm siyasi, həm diplomatik, yeri gələndə isə indiki dövr üçün hərbi təyinatlı dəstək verir. Rəsmi Bakı isə regional yaraların öz sərhədinə qədər metastaz verməməsi üçün əlindən gələni edir. Ermənistanın kiminsə qabığına girib Azərbaycana qarşı fürsətcil davranış sergiləməsinə imkan vermir. Şuşa Bəyannaməsinin imzalanmasından sonra da Cənubi Qafqazdakı postmünaqişə dövrünün çağırışları Azərbaycan-Türkiyə əməkdaşlığının yeni səviyyəyə çatdırılmasını zəruri edir”.

**A.Kərimova görə, liderlərin təmaslarında həmin məsələlər ətrafında yeni planların cızılması üçün tezislər müzakirə edilə bilər:** ”Azərbaycan-Türkiyə müttəfiqliyi Zəngəzur dəhlizinin açılmasını labüd hala gətirir, bu dəhliz Bakı ilə Ankaranın perspektiv strateji yanaşması üçün münbit platformadır. Ancaq bu platformaya zədə vermək istəyən qüvvələr mövcuddur, burada Azərbaycan və Türkiyənin əlinə böyük iqtisadi-siyasi rıçaq verməmək planları dayana bilər. Ona görə də Azərbaycanla Türkiyə hərbi əməkdaşlığı daha da dərin qatlara endirmək niyyətindədir və hazırkı mərhələdə qarşılıqlı hərbi yardım halında hansı addımların atılacağı mexanizmləri müzakirə edilir. Bu həm Azərbaycanı, həm də Türkiyəni təhdidlərdən qoruyan çevrələri müəyyən edir, Ankara isə Cənubi Qafqazda hərbi iştirak səviyyəsini artırmaqla regional təhlükəsizliyin sabitliyinə töhfəsini əsirgəmir. Bakı ilə Ankaranı Ukraynadakı müharibə məsələsində yaxınlaşdıran digər nöqtə birgə enerji layihələridir. Bu gün Cənub Qaz Dəhlizi layihəsi Azərbaycan qazını Avropa bazarlarına çıxarır. İndi Qərb siyasətçiləri və Qərbin iqtisadi arxitekturasını yeni düzənə uyğunlaşdıran strateqlər Azərbaycan qazını şaxələndirmək niyyətindədir, Ukraynada müharibə davam etdikcə isə bu, qaçılmaz təbii ehtiyaca çevrilir. Azərbaycanla Türkiyə qlobal siyasətdə də müdafiə zolağı yaratmaq üçün əlindən gələni edir, söhbət Türk Dövlətləri Təşkilatından gedir. Bakı və Anlara TDT-nin gündəliyini formalaşdıran dövlətlərdir və bu təşkilat çərçivəsində də əməkdaşlıqda yeni fazaların yaranacağı gözlənilir. Nəticə etibarı ilə Azərbaycan və Türkiyə liderlərinin görüşü hər hansı dövlətə qarşı yönəlmədən bir çox sahədə, o cümlədən də hərbi sahədə əməkdaşlığı dərinləşdirəcək. Bakı-Ankara tandemi geosiyasi oxda özünə qarşı gələ biləcək təhdidlərdən sığortalanan müdafiə xətti yaradır. Azərbaycan və Türkiyə liderlərinin müzakirəsi Ukrayna münaqişəsinin həllinə də töhfə baxımından rol oynayır”.

**İsmayıl Qocayev**



# Ankarada Azərbaycan və Türkiyə prezidentləri arasında görüş keçirilib

## Liderlər Ermənistanla münasibətlərin normallaşdırılmasına dair fikir mübadiləsi aparıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

Azərtac xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlətimizin başçısını qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.

Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulandı. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edildi, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparıldı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunuldu, bu xüsusda Cənub Qaz Dəhlizinin uğurla fəaliyyət göstərdiyi qeyd olundu, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edildi, həmçinin İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulandı.

> Azərbaycan və Türkiyə prezidentləri Avropaya qaz təchizatının artırılması imkanlarını müzakirə edib

Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı.

Hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Görüşdə Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparıldı, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirildi.

*Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olundu və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət etdi.*



# Putin vətəndaşlarının həyatını kabusa çevirdi

## 35 milyon rusun gəlirlərinin kəskin azalması gözlənilir

**”İlkin hesablamalara görə, Rusiyadan gedən, bu ölkədə fəaliyyətini dayandaran şirkətlərdə 4,5 milyon Rusiya vətəndaşı çalışırdı”.**

**Bunu iqtisadçı Natiq Cəfərli deyib. Xarici şirkətlərin Rusiyada fəaliyyətini dondurması barədə danışan ekspert bildirib ki, həmin şirkətlərlə subkontrakt və digər müqavilələrlə çalışan rusiyalılar da var:**

”Toplamda 11-12 milyon nəfər işsiz, gəlirsiz qala bilər. Daha bir məsələ odur ki, 5 milyona yaxın Rusiya vətəndaşı daşınmaz əmlakın biznes seqmentində icarələrdən pul qazanırdı. İndi isə böyük alış-veriş mərkəzləri, dükanlar, ofislər boş qalacaq, bunun da təsiri olacaq. Digər tərəfdən 15 milyondan çox rusiyalı müxtəlif şəhərlərdə öz mənzil və evlərini xarici vətəndaşlara icarə verməklə qazanc əldə edirdilər. Xaricilərin getməsi, yaxın ətraf ölkələrdən Rusiyada yaşayıb pul qazanan miqrantların öz ölkələrinə dönməsi riski onların da gəlirsiz qalmasına səbəb olacaq. Yəni birbaşa və dolayısı ilə 30-35 milyon rusun gəlirlərinin kəskin azalması gözlənilir”.

*N.Cəfərli xatırladıb ki, Rusiya Mərkəzi Bankı ölkədə dollar satışını sentyabr ayına qədər qadağan edib:* ”Bu isə ”qara bazar”ın yaranmasına səbəb olacaq. SSRİ kimi imperiya belə valyuta əməliyyatlarının ”qara bazar”ına mane ola bilməmişdi. Korrupsiyada boğulan Rusiya isə bunu heç edə bilməz. Digər tərəfdən Rusiyada mal-məhsul qıtlığı da yaranır. Piştaxtalar boş qalır, bu da piştaxta altından satışların yaranmasına səbəb olacaq. Bir müddət sonra Rusiyada ərzaq talonları da dövriyyəyə buraxıla bilər. Yəni Putin və ona inanan milyonlarla rusiyalının ”arzusu” yerinə yetir. SSRİ-ni ayrıca bir ölkədə, Rusiyada tam bərpa edirlər”.

**İsmayıl**

# "Ria Novosti" ünvanı səhv salıb

## Qarabağda rusların gözünün önündə real terrorçu dəstələr var

**Rusiyanın ”Ria Novosti” Agentliyi Türkiyə əleyhinə növbəti dezinformasiyasını tirajlayıb. Azərbaycan və qardaş Türkiyə əleyhinə dəfələrlə feyk xəbərlər yayan rus nəşri iddia edib ki, guya, Türkiyə 2020-ci ildə, yəni 44 günlük müharibədə Azərbaycana kömək üçün Suriyadan Qarabağa gətirdiyi 2 mindən çox suriyalı terrorçunu bölgədən çıxararaq Ukraynaya, ruslara qarşı savaşmağa göndərib.**

Guya, həmin döyüşçülər Ukrayna hakimiyyətinin yaratdığı ”xarici legiona” qoşulublar. Xatırladaq ki, ”Ria Novosti” və digər rus KİV-ləri Vətən müharibəsi dövründə də bənzər ittihamları gündəmə gətirmiş, ermənilərə qarşı ”suriyalı terrorçuların” savaşdığını iddia etmişdi. Bu cür xəbərlərin uydurma olduğu hamıya bəllidir. Bunun əksinə, Ermənistan tərəfindən Azərbaycanın əraziləri işğal edilərkən hərbi əməliyyatlarda terror qruplaşmalarından və muzdlu döyüşçülərdən istifadə edildiyinə dair çoxsaylı faktlar mövcuddur. Livandan, o cümlədən İraq və Suriyadan Ermənistana, oradan da Qarabağa terrorçuların gətirilməsi ilə bağlı çoxsaylı faktlar nəinki Azərbaycan və Türkiyə, həmçinin əcnəbi ölkələrin mediasında da işıq üzü görüb.

**Siyasi şərhçi, “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli “Şərq”ə açıqlamasında bildirib ki, Rusiyanın Ukraynanı işğal planında uğursuzluq və Müdafiə Nazirliyinin yol verdiyi ciddi səhvlər günahı kiminsə boynuna atmaq üçün zəmin yaradıb.** Ekspert bildirib ki, müharibə dövründə Azərbaycan ərazisində Ermənistan silahlı birləşmələrinə qarşı hansısa terrorçunun, muzdlu əsgərin döyüşmədiyi hamıya bəllidir: ”Bu faktlar Rusiya tərəfinə daha yaxşı bəllidir. Çünki faktiki olaraq Qarabağda Rusiya-Türkiyə Monitorinq Mərkəzində birlikdə fəaliyyət göstərirlər. Moskva Qarabağda kənar hansı kontingentin yerləşdiyini gözəl bilir. O baxımdan belə uydurma, absurd informasiyaların tirajlanması ”Ria Novosti”nin növbəti təxribatıdır. Təxribat olmaqla yanaşı, mahiyyət etibarı ilə utancverici yanaşma tərzidir. Türkiyə və Azərbaycan regionda, bütün postsovet məkanında sülhün, əmin-amanlığın bərpa olunmasına çalışır. Rusiyanın Antalyada keçirilən görüş fonunda müsbət məqamlara köklənmək əvəzinə baş verən uğursuzluqların günahını Azərbaycanda, yaxud Türkiyədə axtarması gülüncdür. Diqqətə çatdırım ki, 10 noyabrda imzalanmış üçtərəfli bəyanatın əsas prinsiplərindən biri hələ də yerinə yetirilməyib. Azərbaycan ərazilərində qanunsuz erməni silahlıları qalmaqdadır. Sirr deyil ki, torpaqlarımızdakı erməni silahlı birləşmələrini Rusiya sülhməramlılarının komandanı Volkov himayə edir. Rusiya KİV-ləri Qarabağdakı erməni terrorçularını, göydən, havadan gələn ”terrorçularla” səhv salıblar. Rusların gözünün önündə real terrorçu dəstələr var və onlar qanunsuz erməni silahlılarıdır”.



Kreml Ukraynadakı uğursuzluğunun günahını Azərbaycanda, yaxud Türkiyədə axtarması gülüncdür

**İsmayıl Qocayev**

# Ceyhun Bayramov Sergey Lavrovla görüşüb

## Tərəflər Rusiya və Ukrayna arasında aparılan danışıqlar, məsələnin həlli yolları ətrafında fikir mübadiləsi aparıb



**Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının Xarici işlər naziri Sergey Lavrov arasında görüş keçirilb.**

**”Şərq” Xarici İşlər Nazirliyinə istinadən xəbər verir ki, görüş zamanı ikitərəfli gündəliyin aktual məsələləri üzrə müzakirələr aparılıb.**

Tərəflər Ukraynada mövcud olan vəziyyət, Rusiya və Ukrayna arasında aparılan danışıqlar, məsələnin həlli yolları ətrafında fikir mübadiləsi aparıb.

Görüşdə nazirlər regionda mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası, işğal faktorun aradan qaldırılması ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün imkanların yaranması, kommunikasiya və nəqliyyat xətlərinin açılması, sərhədlərin delimitasiya prosesinə dair məsələlər ətrafında müzakirələr aparıblar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Müdafiə Nazirliyinin daha bir sabiq idarə rəisi saxlanılıb



**Müdafiə Nazirliyinin (MN) daha bir sabiq idarə rəisi saxlanılıb. APA-nın xəbərinə görə, MN-in Mənzil İstismar İdarəsinin sabiq rəisi Fikrət Mirzəyev Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi çərçivəsində saxlanılıb.**

O, xüsusilə külli miqdarda mənimsəmədə təqsirləndirilir. Fikrət Mirzəyevə qarşı Cinayət Məcəlləsinin 179.4-cü maddəsi ilə ittiham irəli sürülüb.

Qeyd edək ki, Fikrət Mirzəyev 2 il əvvəl vəzifəsindən azad edilib.

*Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti Müdafiə Nazirliyində baş verən mənimsəmə faktları ilə bağlı cinayət işinin istintaqını davam etdirir.*

*Bundan əvvəl Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin rəisi, general-mayor Nizami Məmmədov və bəzi vəzifəli şəxslər həbs edilib.*

*Fikrət Mirzəyevin saxlanılması ilə bağlı ilk xəbəri ”qafqazinfo.az” saytı yayıb.*

# Antalya Zirvəsində anlaşma alınmadı

**Sergey Lavrov:** "Biz silahsızlaşdırılmış, rus dilini qadağan etməyən Ukrayna istəyirik"

**Dmitri Kuleba:** "Rusiya atəşkəs istəmir, Ukrayna təslim olmayacaq"



**Dünən Rusiyanın və Ukraynanın xarici işlər nazirləri Sergey Lavrov və Dmitri Kuleba arasında Türkiyənin vasitəçiliyi ilə Antalyada görüş baş tutub. Türkiyə tərəfinin ilkin mərhələdə Ukraynada daimi atəşkəs üçün səy göstərdiyi görüşdən sonra ilk açıqlama Dmitri Kulebadan gəlib.**

Ukraynalı nazir bildirib ki, təxminən bir saat yarım davam edən danışıqlarda atəşkəslə bağlı heç bir irəliləyiş əldə olunmayıb. Çavuşoğluna bu məsələdə göstərdiyi səylərə görə təşəkkür edən Kuleba "bu gün bir həll yolu tapılmasa da, ölkəsindəki müharibəni bitirmək üçün bu cür danışıqları davam etdirəcəklərini" deyib. Sergey Lavrov da Ukrayna böhranı altında yatan problemlərin həlli üçün hər cür təşəbbüsləri dəstəklədiklərini və danışıqların yerini heç nəyin verməyəcəyini bildirib. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiya ilə Ukrayna arasında diplomatiyanın işləməsi üçün səylərini davam etdirəcəyini söyləyib.

**"Ukraynanı silahlandıranlar məsuliyyət daşıyır"**

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov deyib ki, Moskva məsələni diplomatiya yolu ilə həll etmək istəyir. O, ABŞ-a təhlükəsizliklə bağlı təkliflər verdiklərini xatırladıb: "Onlar bizə dedilər ki, Ukrayna bizimdir, nə istəsək, onu da edəcəyik".

Lavrov qeyd edib ki, Rusiya silahsızlaşdırılmış Ukrayna istəyir: "Biz silahsızlaşdırılmış Ukrayna, dost Ukrayna, rus dilini və mədəniyyətini qadağan etməyən Ukrayna istəyirik".

XİN başçısı vurğulayıb ki, Qərbin tək istəyi isə Ukraynanı Rusiyaya qarşı qoymaqdır.

Lavrov bildirib ki, Ukraynaya silah-sursat göndərənlər hərəkətlərinə görə məsuliyyət daşıyırlar. Rusiya XİN başçısı Putin və Zelenskinin görüşünün mümkünlüyünə münasibət bildirib. Onun sözlərinə görə, Rusiya və Ukrayna prezidentlərinin görüşü nəticə verəcəksə, baş tuta bilər: "Ukrayna tərəfi görüş istəyir, amma Rusiya hər zaman nəticə verə biləcək görüşlərin keçirilməsinə tərəfdardır: "Putin təmaslardan qaçmır".

**"Başqa ölkələrə hücum etmək niyyətində deyilik"**

Sergey Lavrov qeyd edib ki, Rusiya başqa ölkələrə hücum etmək niyyətində deyil.

Nazirin sözlərinə görə, Rusiya Ukraynaya hücum etməyib, Rusiya, sadəcə, o ərazidən gələn təhlükəyə cavab verib: "Ukraynanı silahlandıranlar öz addımlarının məsuliyyətini dərk etməlidirlər". Lavrov ABŞ-ın Ukrayna ərazisindən bioloji silahın yaradılması üçün istifadə etdiyini də bildirib. XİN rəhbəri Rusiyanın təkliflərini Ukraynaya təqdim etdiklərini bildirib: "Biz bütün məsələlərin həllinə dair danışıqlara hazırıq". Lavrov qeyd edib ki, Belarus ərazisi danışıqlar üçün alternativsizdir. O, görüşdə humanitar məsələlərin müzakirə edildiyini bildirib.

**"Nüvə müharibəsinin baş verəcəyinə inanmaq istəmirəm"**

Rusiya xarici işlər naziri nüvə müharibəsinin baş verəcəyinə inanmaq istəmədiyini deyib. O qeyd edib ki, bu mövzunu Qərb, xüsusən də NATO ölkələrinin nümayəndələri qaldırır: "Qərbin bu mövzuya tez-tez dönməsi çox narahatedicidir". Lavrov Rusiyaya tətbiq edilən sanksiyalardan da danışıb: "Sanksiyalar məsələsini elə şəkildə həll edəcəyik ki, Qərb ölkələrindən asılı olmayacaq. Elə tədbirlər görəcəyik ki, oxşar vəziyyətlə bir daha üzləşməyək".

**"Danışıqlar ağır keçdi, atəşkəslə bağlı razılıq əldə olunmadı"**

Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba isə deyib ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov təxliyə məsələsində öhdəlik götürmədi. O, görüşdə 24 saatlıq atəşkəs məsələsinin müzakirə olunduğunu vurğulayıb. Danışıqların ağır keçdiyini qeyd edən XİN başçısının sözlərinə görə, atəşkəslə bağlı razılıq əldə olunmayıb.

**"Lavrov sadəcə qulaq asmaq üçün gəlmişdi"**

Dmitri Kuleba bildirib ki, o, xarici işlər naziri olaraq, qərar qəbuletmə səlahiyyəti olan biri kimi Antalyaya gəlib: "Mən həll yolu tapmaq üçün gəlmişdim. Amma o, (Lavrov -red) sadəcə dinləmək məqsədilə gəlmişdi".

**"Biz balanslı şəkildə diplomatik həllə hazırıq, amma təslim olmayacağıq"**

Kuleba vurğulayıb ki, müharibəni dayandırmaq lazımdır: "Bizə hücum edən ölkə və dövlət bunu istəmirsə, müharibəni dayandırmayacağıq. Mənim təəssüratım odur ki, Rusiya atəşkəs istəmir. Onlar Ukraynanın təslim olmağını istəyirlər. Ukrayna güclüdür, biz onların planlarını alt-üst etdik. Biz balanslı şəkildə diplomatik həllə hazırıq, amma təslim olmayacağıq". Ukrayna XİN başçısı qeyd edib ki, Rusiyanın şərtlərindən biri də Ukraynanın təslim olmasıdır: "Amma biz təslim olmaq niyyətində deyilik".

**"İlk görüşdən möcüzə gözləmək olmaz"**

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, belə müharibələrin qalibi yoxdur. O qeyd edib ki, həm Rusiya, həm də Ukrayna görüşdə Türkiyə tərəfinin iştirakını istəyib. XİN başçısı atəşkəsə ehtiyac olduğunu, humanitar dəhlizlərin açıq saxlanılmasının vacibliyini vurğulayıb: "Görüşdə Mariupolda humanitar dəhlizin açılmasını müzakirə etdik. Bir görüşdən möcüzə gözlənilməməlidir, bu, başlanğıcdır. Ukrayna tərəfi Zelenskinin görüşə hazır olduğunu bəyan etdi".

**"Putin Ankaraya "yox" deməmək üçün nazirini Antalyaya göndərdi"**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov ukraynalı həmkarı Dmitri Kuleba ilə Antalyada hər hansı razılaşma əldə etməyə gəlməmişdi:** "Lavrovun buna səlahiyyəti yoxdur. Sadəcə, Putin Ankaraya "yox" deməmək üçün nazirini Antalyaya göndərdi. Bütün səlahiyyət Kreml sahibindədir, o isə hələ ki, geri çəkilmək istəmir. Türkiyə üzərinə düşəni, yorulmadan vasitəçilik təşəbbüslərini davam etdirir, atəşkəsə və sülhə çalışır. Ancaq tərəflərdən birinin - Rusiyanın işğalı davam etdirməkdən geri çəkilmək niyyəti yoxdursa, bu müddətdə danışıqlar nəticə verməyəcək".

**İsmayıl Qocayev**

# Ermənistanın təxribatlarının cəzası ağır olacaq

"Yaxın günlərdə anti-terror əməliyyatlarına dair xəbərlər eşidəcəyik"



**Martın 10-u saat 09:50-dən 17:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Ağdam, Xocavənd və Füzuli rayonları istiqamətlərində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan istifadə edilməklə fasilələrlə atəşə tutulub.**

Müdafiə Nazirliyindən verilən xəbərə görə, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Xatırladaq ki, son günlər Ağdamın Paprəvənd yaşayış məntəqəsi, eləcə də Xocalı və Goranboy istiqamətində yerləşən mövqelərimizdə də gərginlik müşahidə olunub.

Məlumat üçün bildirək ki, son günlər Ermənistan mediası Azərbaycan ordusunun Xankəndidə anti-terror əməliyyatları aparmasına dair məlumatlar tirajlayır. Azərbaycan Müdafiə Nazirliyi bu məlumatları təkzib edib. Vəziyyətin stabil olduğunu açıqlayıb.

**Hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bildirib ki, rus sülhməramlı kontingentinin yerləşdiyi ərazilərdən Azərbaycan Ordusunun möqelərinə atəş açılması qəbuledilməzdir:**

"Son günlər sərhəddə yaranan gərginliyin intensiv hal alması, atəşkəsin dörd istiqamətdən pozulması birmənalı olaraq rus sülhməramlı qüvvələrin öz işinə məsuliyyətsiz yanaşmasının nəticəsidir. Əslində isə çökmüş ermənilərin gərginlik yaratmaq məqsədi ilə aktivləşməsi birmənalı olaraq rus sülhməramlılarının başçılığı ilə həyata keçirilir. Baş verənlər artıq Azərbaycan tərəfini ciddi tədbirlər görməyə vadar edir".

**Ekspert hesab edir ki, hazırda Azərbaycanın noyabrın 16-da Qarakilsə istiqamətində həyata keçirdiyi əməliyyatları təkrarlaması üçün çox ciddi zərurət yaranır:**

"Bu əməliyyatların anti-terror və yaxud da təmizləmə əməliyyatı adlandırılmasından asılı olmayaraq, biz yaxın günlərdə ermənilərin yol verdiyi səhvlərə görə cəzalanması ilə bağlı xəbərlər eşidəcəyik".

**Günəş Mərd**



## Qarabağda gözlədiyimiz proseslər başlamaq üzrədir

Kreml Azərbaycanın anti-terror əməliyyatına göz yuma bilər

**Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə baş verən hadisələr gözlədiyimiz proseslərin başlanğıcıdır".**

*Bunu "Şərq"ə açıqlamasına politoloq Azər Qasımov deyib. Analitik bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyanın "Azərbaycanla sülh bağlamağa hazırıq" sözü baş nazirin başlayacaq proseslərdən özünü sığortalamaq cəhdidir:* "Paşinyan demək istəyir ki, Azərbaycan Ordusu Qarabağda antiterror əməliyyatı keçirəcəksə, bu, Ermənistanın qərarlarına təsir etməyəcək. Onun fikrincə, bu məsələ Azərbaycan-Rusiya və Qarabağ ermənilərini maraqlandırır. İrəvan artıq öz yolunu müəyyən edib. Paşinyanın Zəngəzur dəhlizinin açılmasından, infrastruktur layihələrinin başlamasına start verilməsindən və ən sonda sülh müqaviləsindən danışması bunu göstərir".

**A.Qasımov vurğulayıb ki, Ukraynada baş verən proseslər Rusiyanın əl-qolunu bağlayıb:** "Rusiya Qarabağda hərbi qüvvə saxlamağa çətinlik çəkir. Sanksiyalar Rusiyanı Azərbaycan və Türkiyədən asılı vəziyyətə salıb. Buna görə də Rusiyaya uzun perspektivdə sərhəddə gərginlik lazım deyil. Yəni Kreml Azərbaycanın anti-terror əməliyyatına göz yuma bilər. Təbii ki, Azərbaycan tərəfi bu əməliyyatı xüsusi ehtiyatlılıq və təmkinlə aparmalıdır. Söhbət irimiqyaslı hücum əməliyyatlarından getmir. Xüsusi təyinatlıların əraziyə daxil olması, separatçıların başçılarını zərərsizləşdirməsi və kilid nöqtələrini məhv etməsi yetərlidir. Sonra hökumətimiz erməni əsilli əhalisi ilə özü məşğul olacaq, onların hər cür təminatını təşkil edəcək".

**İsmayıl**

# "Qərb Ukrayna üzərindən Moskvanı tələyə saldı"

Yücel Karaüz: "Rusiyaya tətbiq edilən sanksiyalara qoşulmaq üçün Qərb ölkələri Ankaraya təzyiqlər edir"



**Dünən Türkiyənin Antalya şəhərində Ankaranın vasitəçiliyi ilə Rusiya və Ukrayna xarici işlər nazirləri - Sergey Lavrov və Dmitro Kuleba arasında görüş keçirilib. Tərəflərin söhbəti bir saat davam edib və əsasən atəşkəs, ərazi və humanitar məsələlər müzakirə olunub. Rusiya və Ukrayna nümayəndə heyətləri görüşdən kənar danışıqlar aparmayıblar və ayrı-ayrı otellərdə qalıblar. Kuleba Ukraynanın tələblərini Mövlud Çavuşoğlunun diqqətinə çatdırıb.**

Qeyd edib ki, dərhal atəşkəs elan edilməlidir. Bundan başqa, Rusiya qoşunları Ukraynadan çıxmalı, Mariupol, Xarkov, Sumı, Volnovaxa və Ukraynanın digər şəhərlərində humanitar vəziyyət yaxşılaşdırılmalıdır. Lavrov isə müharibəyə görə Qərbi ittiham edib və Kiyev qarşısında Moskvanın tələblərini dilə gətirib. Ankaranın təşəbbüsü ilə reallaşan təmas kifayət qədər gərgin atmosferdə keçib və hansısa məsələdə anlaşma əldə etmək mümkün olmayıb. Türkiyə XİN başçısı M.Çavuşoğlu isə bəyan edib ki, ilk görüşdən möcüzə gözləməyə dəyməz. Antalyada keçirilmiş üçtərəfli görüş və Rusiya-Ukrayna müharibəsi ilə bağlı "Şərq"in suallarını cavablandıran Türkiyənin Azərbaycandakı səfirliyinin keçmiş hərbi attaşesi, təqaüddə olan general-mayor Yücel Karaüz deyib ki, Türkiyə ulu öndər Mustafa Kamal Atatürkün "Yurdda sülh, dünyada sülh" fəlsəfəsinə sahib bir ölkədir. General vurğulayıb ki, Türkiyə regionun və dünyanın bütün problemlərinin, münaqişələrinin beynəlxalq hüquq normaları və ərazi bütövlüyü prinsipləri çərçivəsində çözülməsinin tərəfdarıdır.

**- Yücel bəy, Türkiyənin Rusiya-Ukrayna müharibəsinin dayandırılmasında vasitəçilik missiyasını, bu yöndəki təşəbbüslərini necə dəyərləndirirsiniz?**

- Türkiyə Rusiya-Ukrayna savaşının davam etdiyi 14 gün ərzində tərəflər arasında atəşkəsin və sülhün bərqərar olmasına çalışan və bu yöndə mühüm təşəbbüslər göstərən nadir ölkələrdəndir. Azərbaycan da bu istiqamətdə mövqe sərgiləməkdədir. Ancaq Qərb dünyası, xüsusən ABŞ, Böyük Britaniya və Fransa kimi dövlətlər öz mənafeləri naminə Türkiyənin Moskva-Kiyev qarşıdurmasında vasitəçilik missiyasını öz üzərinə götürməsini istəmirdilər. Bütün çətinliklərə rəğmən, Ukrayna və Rusiya xarici işlər nazirləri Antalyada bir araya gələ bildi. Şübhəsiz, iki ölkə təmsilçilərinin təması dövlət başçıları V.Putin və V.Zelenskinin təlimatı və məlumatı daxilində baş tutub. Nəticəsindən asılı olmayaraq, yüksək rəsmilərin təması çox önəmlidir. Türkiyənin səmimi, humanist və sülhsevər təşəbbüsü tarixdəki yerini alacaq. Əlbəttə, qəbul etmək lazımdır ki, problem kifayət qədər ciddidir. Söhbət qərb ölkələrinin dolayı yolla qatıldığı Rusiya ilə Ukrayna arasında müharibədən gedir. Müzakirələrin davamlı olması, öncə atəşkəsə, sonra sülhə doğru irəliləməsi mürəkkəb prosesdir və buna zaman lazımdır. Lakin görünən odur ki, savaş iki ölkəni də tükəndirib. Ona görə də tərəflər danışıqlar masasına oturmağa razılıq verir.

> "Türkiyənin səmimi, humanist və sülhsevər təşəbbüsü tarixdəki yerini alacaq"

**- Rusiya-Ukrayna arasında dialoq və müzakirəni davam etdirmək mümkün olacaqmı?**

- Müzakirələr davam edəcək, hətta zamanla formatı da dəyişə bilər. Ən azından humanist dəyərlər və daha çox insanın həyatını itirməməsi üçün təmasların olması zəruridir. Əsas hədəf üç ölkənin prezidentlərinin - Rəcəb Tayyib Ərdoğanın, Vladimir Putinin və V.Zelenskinin bir araya gəlməsidir.

**- Türkiyənin Rusiyaya münasibətini necə şərh edərdiniz? Bəziləri tələb edirlər ki, Ankara hökuməti Moskvaya qarşı daha sərt davranmalıdır...**

- Türkiyə 2014-cü ildən bu yana Rusiya tərəfindən ilhaq edilən Krımın, eyni zamanda Donbassın Ukrayna torpaqları olduğunu, bu ölkənin ərazi bütövlüyünü tanıdığını davamlı bəyan edib. Ukrayna ilə münasibətlərimiz çox yüksək səviyyədədir. Bununla yanaşı, Ankaranın Moskva ilə də hərtərəfli, sıx əlaqələri mövcuddur. Türkiyə bir-biri ilə savaşan Ukrayna və Rusiya ilə danışmağı bacaran, iki ölkə ilə əlaqəsi olan dövlətdir. Azərbaycan da belədir. Qərb dünyası birmənalı Ukrayna tərəfindədir və Rusiyaya düşmən mövqedədir. Türkiyə tərəfsizliyini qorumaqla, iki ölkəyə eyni məsafədə dayanaraq vasitəçilik missiyasını həyata keçirir. Təbii ki, Türkiyə Ukraynada yaşanan drama, insan ölümlərinə qarşı çıxır, humanitar yardımlar göndərir. Lakin Qərbin təhriklərinə və reallaşmayan dəstək vədinə aldanmış Ukrayna rəhbərliyinin daha ciddi fəlakətlərə yol açacaq addımlar atmaması, xalqı daha acınacaqlı duruma salmaması çox önəmlidir. Eyni zamanda Qərbin sanksiyaları fonunda Rusiya əhalisi də iqtisadi çətinliklər yaşamaqdadır. Nəzərə alaq ki, bu ölkələr arasında davamlı dostluq olmadığı kimi, davamlı düşmənçilik də yoxdur. Gec-tez atəşkəs imzalanmalı, sülhə şans verilməlidir. Türkiyə və Azərbaycan tərəfsizliyini nümayiş etdirərək, hər iki tərəfə doğru və yanlışı, qlobal balans sistemini xatırladır.

**- Sizcə, Türkiyə Rusiyaya qarşı sanksiyalara qoşulmalıdırmı?**

- Rusiyaya tətbiq edilən sanksiyalara qoşulmaq üçün Qərb ölkələri Ankaraya təzyiqlər edir. ABŞ Prezidenti Co Baydenin Türkiyə Prezidenti R.T.Ərdoğanla telefon əlaqəsi saxlayacağı və bu məsələni müzakirə edəcəyi söylənilir. Amerikanın Rusiya ilə arasındakı məsafə 8 min kilometrdən artıqdır. Rusiya Qara dəniz üzərindən Türkiyənin qonşusu sayılır və düşmən ölkə hesab olunmur. İki ölkə arasında qarşılıqlı strateji əlaqələr var. O baxımdan Türkiyə heç zaman Qərbin, ABŞ-ın tələsinə düşməyib və düşməyəcək.

**- Rusiyanın anidən işğala başlaması Moskvaya nə qazandırdı? Kremlin məqsədi nə idi və istəklərinə nail ola bildimi?**

- Ukrayna ərazilərinə soxulan Rusiyanın siyasi və hərbi hədəfləri var idi. Lakin savaşdan 14 gün keçsə də, Moskvanın öz istəklərinə nail olduğunu söyləmək mümkün deyil. Donbass vilayətinin, Donetsk və Luqanskın bir hissəsi onsuz da Rusiyanın nəzarətində idi. Moskva öz gücünü və Ukraynanın resurslarını hesablamadan müharibəyə başladı. Ordunu Ukrayna ərazisində sürətli şəkildə irəlilətmək planı tətbiq edilsə də, Rusiya məqsədlərinə çatmadı. Hərbi hədəflərinin müəyyən qismini reallaşdırsa da, siyasi ambisiyalarını gerçəkləşdirə bilmədi. Qərb Ukrayna üzərindən Rusiyanın aqressiyasına, "dünyada super güc olma" arzusuna oynadı və Moskvanı tələyə saldı. Bu müharibənin əsas qazananı ABŞ və Böyük Britaniyadır. Savaşın tərəfləri - Ukrayna və Rusiya məğlub durumdadır. Rusiya indi önə sürdüyü şərtləri savaşmadan da əldə edə bilərdi. Müharibə və diplomatiya hesab-kitab işidir. Rusiya ilk dəfə uğursuzluğa düçar olmaqla, məğlubiyyətlə üzləşməkdədir.

**- Prezident Zelenski Qərbdən yetərli dəstək almadığından şikayətləndi. Qərb niyə Ukraynaya lazımi dəstəyi, hərbi yardımı verməkdən çəkinir?**

- Zelenski Gürcüstan nümunəsindən dərs çıxartmalıydı. Qərb ölkələrinin, NATO-nun etibarsız olduğunu bilməliydi. ABŞ və Avropa ölkələri öz maraqları naminə istənilən dövləti "maşa" kimi istifadə etməkdən çəkinmir. Qərb sadəcə siyasi, iqtisadi dəstək verməklə kifayətlənir. Amma reallıq odur ki, hazırda Ukraynada əsl dram yaşanır, ölkə iflic durumdadır. Yüzlərlə sivil, qadın, uşaq həyatını itirib. 2 milyondan artıq insan ölkəni tərk edərək qaçqın vəziyyətinə düşüb. Hər bir hökumət, rejim ölkəni, xalqı çıxılmaz duruma salmayan, onların həyatına təhlükə yaratmayan siyasətə üstünlük verməlidir. Görünür, Zelenski müəyyən reallıqları başa düşür ki, 14 gün sonra Rusiya ilə bəzi məsələlərin müzakirəsinə hazır olduğunu açıqlayır. Halbuki, Ukrayna prezidenti iki həftə əvvəl tamam fərqli abhavada idi. Əgər indiki yanaşmanı daha əvvəldən sərgiləsəydi, böyük ehtimal proseslər savaş həddinə çatmaz, dünya yeni böhrana yuvarlanmazdı.

**İsmayıl Qocayev**



# Müharibənin sonu görünmür

## Tərəflər bir-birinin şərtlərini qəbul etməyəcək

**Rusiya-Ukrayna müharibəsinin 15-ci günüdür. Qanlı toqquşmalarda 13 min insanın həyatını itirdiyi, 1,8 min insanın yaralandığı və 1,7 min binanın dağıdıldığı təxmin olunur. Bu müddət ərzində tərəflər arasında bir neçə dəfə görüşlər keçirilsə də, nəticə əldə etmək mümkün olmayıb.**

Görüşlər zamanı Rusiyanın irəli sürdüyü əsas şərtlərdən biri də Ukraynanın konstitusiyasında dəyişiklik edərək neytral ölkə statusu alması ilə bağlı öhdəlik götürməsidir.

Qeyd etmək lazımdır ki, Rusiya bu tələbini Finlandiyada gerçəkləşdirmişdi. Ancaq nəticələri gözlədiyi kimi olmadı. Finlandiya Qərb ölkələri ilə daha da yaxınlaşdı və Kremlin təsir dairəsindən ciddi şəkildə uzaqlaşdı.

Bu gün Rusiyanın Ukraynaya eyni tələb irəli sürməsi "yeni Finlandiya" yaratmaq istəyindən doğmur. Moskvanın məqsədi Ukraynanı Qərbdən uzaqlaşdırıb tamamilə öz nəzarəti altına almaqdır. Eyni zamanda bu müharibə addım-addım özünü mühasirəyə salan Kremlin NATO-ya qarşı apardığı mübarizədir.

Zaman isə hər iki ölkənin əleyhinə işləyir.

**Baş verən prosesləri "Şərq"ə təhlil edən politoloq Sədrəddin Soltanın sözlərinə görə, hər hansı tərəfin hazırkı şərtləri qəbul etməsi mümkün görünmür.**

### Rusiya bombalayır, Ukrayna isə müqavimət göstərir

"Rusiyanın qoyduğu şərtlərə görə, Ukrayna NATO-ya daxil olmur, neytral ölkə statusunda qalır, Luqansk və Donetsk qondarma respublikalarının müstəqilliyi, Krım isə Rusiyanın ərazisi kimi tanınır. Bu şərtlər qarşılığında Rusiya qoşunlarını geri çəkir. Ukrayna isə ərazi bütövlüyünün təmin olunmasını istəyir. Yəni Ukrayna öz ərazi bütövlüyündən, Rusiya da öz şərtlərindən imtina etmir. Belə bir şəraitdə kompromis yoxdur. Danışıqların əsas mövzusu humanitar dəhliz və yardımlarla bağlıdır. Hər hansı güzəştlərlə bağlı məsələ gündəlikdə yoxdur. Bu səbəbdən ortaya qoyulan şərtləri tərəflərdən hansısa birinin qəbul etməsi ehtimalı azdır. Bu qədər itkidən sonra Ukrayna öz ərazi bütövlüyündən, suverenliyindən vaz keçməyəcək. Rusiya da eyni şəkildə baş verən proseslərdən sonra öz şərtlərindən imtina etməyəcək. Nəticədə, tərəflər bir-birinə qarşı mübarizəyə davam edirlər. Rusiya bombalayır, Ukrayna isə müqavimət göstərir".

Politoloq sözlərinə davam edərək vurğulayır ki, Krım, Donetsk və Luqanskın ortaq idarəçiliyi mümkün deyil:

"Bu ərazilərin Rusiya tərəfindən idarə olunması Ukraynanın suveren hüquqlarının pozulmasıdır. Ancaq əvvəllər dördlük formatda Donetsk və Luqansk vilayətlərinə Ukrayna ərazi bütövlüyü daxilində xüsusi statusun verilməsi məsələsi gündəlikdə idi. Kiyevdən də müəyyən razılıqlar verilmişdi. Ancaq bundan sonra vəziyyət necə olacaq, məlum deyil".

Sədrəddin Soltanın sözlərinə görə, Ukraynanın neytral dövlət olması ilə bağlı məsələ onun konstitusiyasında təsbit olunmalıdır: "Bu məsələni Rusiya şərt kimi irəli sürür. Bununla da Avropanı fakt qarşısında qoyur ki, Ukrayna neytral ölkə olmadıqca buradan çıxmayacaq. Avropa isə bildirir ki, neytral olmaq və ya hər hansı beynəlxalq qurumda iştirak etmək bu ölkənin suveren hüququdur".

**Sənan İsmayıl**

# "Rusiya-Ukrayna böhranının tezliklə həlli mümkün deyil"

## Həşim Səhrablı: "Problemin həlli daha uzaq bir perspektiv tələb edir"

**Dünyanın bir çox ölkələrinin nümayəndələrinin qatılacağı Antalya Diplomatik Forumu öz işinə başlayıb və üç gün davam edəcək. Forum çərçivəsində Türkiyə, Rusiya və Ukrayna xarici işlər nazirləri Mövlud Çavuşoğlu, Sergey Lavrov və Dmitro Kulebanın arasında üçtərəfli görüş baş tutub.**



Görüş sonrası mətbuat konfransı keçirilib. Ukrayna XİN başçısı D.Kuleba mediaya açıqlamasında danışıqların ağır keçdiyini və atəşkəslə bağlı razılıq əldə olunmadığını vurğulayıb. Rusiya Xarici işlər naziri S.Lavrov isə rəsmi Moskvanın sonadək məsələni diplomatik yolla həll etmək istədiyini diqqətə çatdırıb. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da üçtərəfli görüşə münasibət bildirib: "Rusiya ilə Ukrayna arasında diplomatik təmasların davam etməsi üçün səylərimizi əsirgəməyəcəyik".

**Hərbi-siyasi ekspert Həşim Səhrablı XİN başçılarının görüşünün mövcud Rusiya-Ukrayna böhranına təsir göstərə biləcək tərəflərini "Şərq"ə şərh edib. Ekspert bu xüsusda Türkiyənin roluna diqqət çəkib:**

"Son vaxtlar Türkiyə ümumdünya siyasətinin mərkəzi halına gəlib. Rəsmi Ankaranın dünyaya təsir imkanları artıb. O, Şərqlə Qərbin bir-birinə qarşı olan anlaşılmazlıqlarının həllinə yönəlib. Hazırda Türkiyə öz sözünün dünya siyasətində keçərli olması baxımından ən effektiv ölkədir. NATO üzvü olmasına rəğmən o, bütün dünya ölkələri arasında barışdırıcı missiyanı üzərinə götürməyə çalışır. Təbii ki, bu məqamda Türkiyənin öz dövlət maraqları da qorunur".

**Siyasi şərhçinin fikrincə, indi 2014-cü ildən davam edən və hazırda alovlanan Rusiya-Ukrayna böhranının tezliklə həll olunması mümkün deyil:** "Rusiya Ukraynaya hücumu zamanı başda orda iqtidar dəyişikliyi edib, rus meyilli bir fiquru iqtidara gətirmək istəsə də, bu, baş vermədi. Düzdü, hazırda Ukrayna iqtidarı Qərblə əvvəlki qədər səmimi münasibətlər qurmaq istəməsə də, vətənlərini də Rusiyaya təhvil vermək niyyətində deyillər. Hazırda tərəflərin böhranın həlli üçün bir-birinə təklif etdiyi tələblər tamamilə ziddiyyət təşkil edir. Bu tələblər arasında fərqlər az olsa idi, o zaman böhranın qısa zamanda həlli mümkün olardı. İndi Rusiya Krımın rus torpağı olmasını və Donetsk və Luqanskın "müstəqilliyinin" tanınmasını, Ukraynada bütün bölgələrdən rus qoşunlarının çıxarılmasını və beynəlxalq hüquqda tanınmış Ukraynanın ərazi bütövlüyünün təmin edilməsini istəyir. Görünən odur ki, coğrafi məsələlər istisna olmaqla onlar digər məsələlərdə razılaşa bilərlər".

**H.Səhrablı vurğulayıb ki, hazırda tərəflər arasında keçirilən belə görüşlər sadəcə müharibənin acı fəsadlarının aradan qaldırılmasında razılıqlara səbəb ola bilər:** "Ola bilsin, artıq əvvəlki kimi dağıdıcı əməliyyatlara şahid olmayacağıq. Bundan sonra Ukraynanın timsalında beynəlxalq güclərin bir-biri ilə mübarizə apardığı Suriya, Liviya nümunəsi görə bilərik. İndi, bəlkə də, həmin senarilərin Ukraynada təkrarlanması planlaşdırılır. Problemin həlli isə daha uzaq bir perspektiv tələb edir".

**Günəş Mərd**

# Azərbaycan Laçın dəhlizi ilə bağlı hərəkətə keçməlidir

## Bölgəyə silahla daxil olan qüvvələrə vaxtında zərbələr endirilməlidir



**Ermənistan tərəfindən il ərzində Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının əsas elementlərindən birini təşkil etmiş "hərbi əsirlər" mövzusu üzrə irəli sürülən əsassız ittihamların neytrallaşdırılması, məsələ ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması diqqət mərkəzində olub. Bu, Nazirlər Kabinetinin 2021-ci il üçün hesabatında qeyd edilib.**

Bildirib ki, Ermənistan tərəfinin bu kimi təxribat xarakterli hərəkətləri barədə müvafiq beynəlxalq təşkilatlara məktublar ünvanlanıb: "Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatı üzrə öhdəliyinə zidd olaraq, öz silahlı qüvvələrini qanunsuz olaraq Azərbaycan ərazilərinə yerləşdirməsi, o cümlədən, təxribat-diversiya qrupları vasitəsilə təxribat xarakterli addımları, "Laçın dəhlizi"ndən təyinatına zidd olaraq hərbi məqsədlərlə istifadə cəhdləri ilə bağlı Azərbaycan Respublikası adından BMT, ATƏT, Avropa Şurası və NATO-nun Baş katiblərinə, ATƏT-in Fəaliyyətdə olan Sədrinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsinə, Rusiya Federasiyasının Xarici işlər nazirinə məktublar ünvanlanıb". - deyə məlumatda qeyd edilib.

**"Laçın dəhlizi"nin təyinatına zidd istifadəsi haqqında "Şərq"ə danışan millət vəkili Fazil Mustafa bildirib ki, Azərbaycan tərəfi nəinki, addım atmalıdır, həm də bura müdaxilə etməlidir:**

"Bəyanatda belə buna əsas verən addımlar var. Orada qeyd olunub ki, Azərbaycan dəhlizdə müəyyən nəzarəti həyata keçirməlidir və təhlükəsizliyə zəmanət verir. Zəmanət üçün də Azərbaycan oranı yoxlamalıdır. Hesab edirəm ki, bu məsələdə Azərbaycan artıq bütün dünya ölkələrinə, BMT və başqa qurumlara müraciət etməlidir. Bundan əlavə həm də hərəkət etməlidir. Hər hansı şəkildə silahla bölgəyə daxil olan qüvvələrə Azərbaycan müəyyən dərəcədə öz təsirini göstərməlidir, lazım olan vaxtda zərbəsini vurmalıdır. Çünki bu məsələ bütün hallarda Azərbaycanın dövlət maraqlarına və 10 Noyabr Bəyannaməsinin ruhuna ziddir. Kimsə bundan istifadə edib hansısa bir məqsəd güdürsə, o, bilavasitə bəyannamənin bəndlərini pozur".

*Millət vəkili hesab edir ki, Azərbaycan burada tam haqlıdır və hüquqi cəhətdən məsələni gündəmə gətirməklə əslində ata biləcəyi addımların da müəyyən dərəcədə əsaslandırmasını indidən ortaya qoyur.*

**Çimnaz**

# Rusiya Müdafiə Nazirliyi başını itirib

## Volkovun uğursuz təqdimatı aranı qatmaq məqsədi güdür

**"Rusiya Müdafiə Nazirliyinin məlumatı ikitərəfli əlaqələrə xələl gətirir". Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputatın sözlərinə görə, Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumatlar rəsmi Moskvanın siyasətinə, bu ölkənin imzaladığı sazişlərlə müəyyənləşmiş vəzifə və öhdəliklərinə ziddir:**

"Belə addımlar Rusiya ilə normal münasibət saxlayan tək-tük ölkələri də qıcıqlamdırmağa və küsdürməyə xidmət edir. Azərbaycan hər zaman Rusiya ilə münasibətlərin normal məcrada inkişafına səy göstərir. Son addımlar bu münasibətlərə ciddi xələl gətirir.

Rusiya tərəfindən dəfələrlə ali və yüksək səviyyələrdə verilmiş açıqlamalarda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı təsbit edilib. Eyni zamanda iki ölkə arasında imzalanmış müvafiq sənədlərdə də bu mövqe bir daha xüsusi vurğulanıb. Görünür, Ukraynadakı ardıcıl və biabırçı uğursuzluqlarla əlaqəli Rusiya MN-in rəhbərliyində oturan şəxslər nə etdiyinin fərqində deyillər. Onların məqsədi nədir? Münasibətləri gərginləşdirmək və pozmaq? Bu, iki ölkə arasında qarşılıqlı münasibətlərə ciddi xələl gətirən kobud səhvdir".



Parlament üzvü qeyd edib ki, görünür, Rusiya Müdafiə Nazirliyi təxribatçı açıqlamalarla diqqəti Ukraynadakı biabırçı məğlubiyyətdən yayındırmaq, aranı qatmaq istəyir: "Ancaq bu, Rusiya tərəfinə heç bir uğur gətirməyəcək. Rusiya tərəfi Azərbaycanla münasibətlərin qorunmasında maraqlı olmalıdır. Burada Azərbaycandakı Rusiya sülhməramlılarının komandanı Volkovun rolu olduğu şübhəsizdir. Öz vəzifə öhdəliklərinə əməl etməyən, ermənilərin yaşadığı ərazilərdə biznes quran, Azərbaycana qarşı xüsusi mənfi münasibəti olan Volkovun təqdimatı ilə hazırlanan bu tipli məlumatlar Rusiya ilə Azərbaycan arasında əlaqələrə xələl gətirmək məqsədi güdür. Rusiya tərəfi bu kimi məlumatları yayarkən çox diqqətli olmalıdır. Azərbaycanın mövqeyi prinsipial və qətiyyətlidir. Bütün dövlətlər öz siyasətlərində bunu nəzərə almalıdırlar".

**İsmayıl Qocayev**

# "Rusiyanın Avropa Şurasından çıxarılması heç nəyi dəyişməyəcək"

## Əhəd Məmmədli: "Onsuz da Moskvaya qarşı sanksiyalar pik nöqtədədir və maksimum təzyiq edilib"

**Rəsmi Moskva bundan sonra Avropa Şurasında iştirak etməyəcəyini bəyan edib.**

**Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.**

"Rusiyaya qarşı dost olmayan AB və NATO dövlətləri Avropa Şurası Nazirlər Komitəsində mütləq çoxluqdan sui-istifadə edərək, Avropa Şurasını və Avropada ümumi humanitar-hüquqi məkanı məhv etmək xəttini davam etdirir. Hadisələrin gedişi dönməz xarakter alır. Rusiya bundan sonra Avropa Şurasında iştirak etməyəcək. Qoy onlar Rusiyasız bir-biri ilə ünsiyyətdən həzz alsınlar", - sənəddə deyilir.



Qeyd edək ki, Avropanın qaz ehtiyacının 41 faizini Rusiya ödəyir. Yəni tərəflər arasında iqtisadi asılılıq mövcuddur. Buna görə də Rusiya və Avropa arasında münasibətlərin pisləşməsi və əlaqələrin kəsilməsinin yaradacağı fəsadlar hər iki tərəf üçün ağır olacaq. Nəticədə, Rusiya iqtisadiyyatı çökə, Avropa ölkələrinin əhalisi isə soyuqdan donmaq təhlükəsi ilə üz-üzə qala bilər.

**Moskvanın AŞ-dən imtina etməsi ilə bağlı bəyanatını "Şərq"ə dəyərləndirən politoloq Əhəd Məmmədli qeyd edib ki, bu addım heç nəyi dəyişməyəcək:**

"Avropa Şurası BMT kimi amorf təşkilatdır. Ümumiyyətlə, belə təşkilatların artıq dünya siyasətində ciddi şəkildə nəyisə dəyişəcək gücləri yoxdur. Onsuz da AŞ-nin Rusiyada təzyiq imkanları mövcud deyildi. Sadəcə, Rusiya təşkilata üzvlük haqqını ödəyirdi. Ona görə də bu addım Kreml üçün heç nəyi dəyişməyəcək. Onsuz da Rusiyaya qarşı sanksiyalar pik nöqtədədir və maksimum təzyiq edilib.

Ancaq qaz məsələsi ilə bağlı problem yarana bilər. Əgər Avropa Rusiya qazının idxalından imtina etsə, bu, həqiqətən Kreml üçün ciddi zərbə olacaq. Lakin hələ Almaniya, Fransa və digər Avropa ölkələri rus qazının idxalını dayandırmayıblar. Çünki Makron da qeyd etdi ki, əgər rus qazından imtina etsək, növbəti il Avropa soyuqdan donacaq. Bu səbəbdən, Rusiyanın AŞ-dən çıxarılması ciddi təzyiq forması hesab edilə bilməz".

**Sənan İsmayıl**

# Kremlə qarşı heç vaxt belə bir iqtisadi müharibə olmamışdı

## Peskov gələcəklə bağlı proqnoz verməyə çətinlik çəkib



**"Rusiyaya qarşı görünməmiş iqtisadi müharibə başlayıb". Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Şərq" xarici KİV-ə istinadən xəbər verir ki, D.Peskov jurnalistlərlə keçirdiyi brifinqdə inflyasiya ilə bağlı proqnozlar barədə suallara cavab verib. O vurğulayıb ki, indi mənfi nəticələrin və gələcək risklərin minimuma endirilməsi üçün tədbirlər görmək lazımdır:

"Ölkəmizə qarşı indiyə qədər belə bir iqtisadi müharibə olmayıb. Buna görə də nəyisə proqnozlaşdırmaq çox çətindir".

Eyni zamanda, D.Peskov ABŞ-ın de-fakto olaraq Rusiyaya qarşı iqtisadi müharibə elan etdiyini bildirib.

**Çimnaz**

# Paşinyan Rusiyaya xəyanət etmək istəyir

## Ermənistan baş nazirinin Paris səfəri rəsmi Moskvaya mərkəzdənqaçma kimi görünür

**Rusiya Ukraynada mürəkkəb durumla üz-üzədir. Ukraynada dəyəri milyard dollarla hesablanan hərbi texnika, canlı qüvvə itkisi ilə yanaşı Rusiya dünya ölkələrinin ağır sanksiyalar mənqənəsində sıxılır.**



Belə bir vaxtda Ermənistanın Baş naziri Nikol Paşinyan Fransaya işgüzar səfərə gedib. Fransalı həmkarı Emmanuel Makronla görüşüb və "Ambisiyalar: Ermənistan-Fransa" forumuna qatılıb.

Bəzi ekspertlər Qərbə sığınan rəsmi İrəvanın bu hərəkətini Rusiyaya qarşı yeni bir xəyanət kimi qiymətləndirir.

*N.Paşinyan hakimiyyətinin Rusiyaya qarşı "sürprizləri" nədən xəbər verir?*

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, N.Paşinyanın Fransa səfəri növbəti prezident seçkiləri ilə bağlıdır:**

"Fransa seçkilərində erməni məsələsi aktuallıq daşıyır. Sözügedən səfəri E.Makrona jestdir.

Əgər Ukrayna prosesləri, Qərb-Rusiya qarşıdurması nöqteyi-nəzərindən yanaşsaq, bu səfər Rusiyaya mərkəzdən qaçma kimi görünür. Hazırkı durumda ən sakit dayanan ölkələrdən biri Ermənistandır. Ukraynanın ərazi bütövlüyünü dəstəklədiklərini belə vurğulamayıblar. Heç bir humanitar yardım da göstərməyiblər. Təbii, bu, Rusiya ilə olan müttəfiqliklə bağlıdır. Ukraynanın hücum etdiyini əsas gətirərək Kremlin KTMT-ni müharibəyə cəlb etmə ehtimalı mümkündür. "KTMT-yə üzv olan ölkəyə təcavüz var, digər üzvlər də prosesə qoşulmalıdır" deyə bilər. Ermənistan da prosesə qoşulmağa məcbur olacaq".

**A.Nərimanlının sözlərinə görə, N.Paşinyan Qərbdə müəyyən qədər dayaq əldə etmək istəyir:**

"Güman ki, N.Paşinyan Makronla görüşündə belə məsələləri də müzakirə edib. Görünən situasiyada Ermənistan çətin vəziyyətdə qalsa, Qərbin sanksiyaları ilə üzləşməməsi üçün səy göstərir. Müharibənin 14-cü günündə Rusiya hələ də istəklərinə çata bilməyib, üzləşdiyi sanksiyalar onu çətin vəziyyətə salır. Müharibənin nə vaxt bitəcəyi də bəlli deyil. Ermənistan tərəfi Rusiyanın yanında dayanmaq istəmir. Öz xəttini seçir, Qərblə yaxınlıq edir. Rusiya hələ prosesi izləyir, çətin vəziyyətdən güclü çıxmağa çalışır. Çünki müttəfiqləri dağılışa bilər. Sərt mövqe də göstərməyi mümkündür. V.Putin qonşu ölkələrin tərəflərin münasibətinə qoşulmaması, Rusiya ilə əlaqələrini davam etdirməli olduqları mesajını verib. Sözsüz ki, xəbərdarlıqlardan biri Ermənistana aiddir. Paşinyan Rusiyaya xəyanət etmək istəyir, artıq ilkin əlamətlər var".

**Aygün Tahir**

**Ukraynada vəziyyət gərgin olaraq qalır. Təkcə döyüşçülər arasında deyil, mülki əhalidən də itki kifayət qədərdir. Prezident Vladimir Zelenskinin həyat yoldaşı Yelena Zelenskayanın bu günlərdə dünya ictimaiyyətinə ünvanladığı açıq məktub ölkədəki durumun ən bariz göstəricisi olmaqla yanaşı, həm də qürur nümunəsi idi. Hakimiyyət də, xalq də məğrurdur.**




# "İnformasiya müharibəsində Ukrayna daha üstündür"

## Türkiyəli jurnalist Hilmi Yaşa: "Döyüşlər davam etsə, Putin iqtidarı tədricən zəifləyəcək"

Danışıqlar davam edir. Yəqin ki, diplomatiya masası arxasında hər iki tərəfin maraqları təmin olunanadək hərbi əməliyyatlar davam edəcək. Kimin axıradək tab gətirə biləcəyi isə hələlik məlum deyil.

*"Şərq"in əməkdaşı Ukraynada ezamiyyətdə olan türkiyəli operator Hilmi Yaşa ilə ölkədəki son durumu müzakirə edib:*

**- Kiyevdə durum necədir?**

- Burada atışmalar yoxdu, amma raketlər atılır. Ruslar konkret hədəfləri vururlar. Hərçənd bəzən hədəflər qeyri-dəqiq ola bilir. Gənclər əllərində silah şəhəri müdafiə edirlər.

**- İctimai rəy necədir?**

- İnsanlar çox sakitdir. Əsla həyəcan, təlaş yoxdur. Görünür, millət dövlətə güvənir.

- İki dünya müharibəsində qalib gələn Rusiya indi Kiyevə girmək üçün bu qədər güc sərf edir və bunu hələ də bacarmır...

- Bu, mənə də maraqlıdır. Əslində ruslar irəliləyirlər, amma çox yavaş. Ola bilsin, hələ də bizim bilmədiyimiz nələrsə var.

**- Müharibənin nəticəsi barədə nə düşünürsüz?**

- Əgər tərəflər diplomatik masa arxasına əyləşsələr və Rusiya istədiyi torpaqları Ukraynadan qoparsa, Zelenski hakimiyyətdən gedər. Yox, döyüşlər davam etsə, Putin iqtidarı tədricən zəifləyər.

**- Davam edən informasiya müharibəsini necə qiymətləndirirsiniz?**

- Düşünürəm ki, bu məsələdə Ukrayna tərəfi daha üstündür. Ukrayna mediasi daha fəaldır.

**- Yerli jurnalistlər necə çalışırlar?**

- Ukrayna televiziya kanalları ortaq yayımlarla çıxış edir. Xalqın dəstəyini, həmrəyliyini göstərir, məsul şəxslərlə onlayn müsahibələr edirlər. Əsas məqsəd xalq arasındakı müsbət əhval-ruhiyyəni qorumaqdır.

**Kənan Novruzov**



# Ərdoğan Nazarbayevi blokadadan çıxardı

## Qocaman "qrossmeyster" yenidən siyasi həyata atılır

**Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev diplomatik forumda iştirak etmək üçün Türkiyənin Antalya şəhərinə gedib. Bu barədə Nazarbayevin mətbuat katibi məlumat yayıb.**

"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Nursultan Nazarbayev forumda iştirak etmək üçün Antalyaya gedib. Antalya forumu qlobal və regional məsələlərdə fikir mübadiləsi üçün diskussiya meydanıdır", - deyə mətbuat katibi qeyd edib.

Qeyd edək ki, Qazaxıstan Təhlükəsizlik Şurasının ömürlük sədri Nursultan Nazarbayev idi. Yanvarın 5-də verilmiş fərmana görə, Prezident Kasım Tokayev konstitusiyanın 70-ci maddəsinə uyğun olaraq hökumətin istefasını qəbul edib. N.Nazarbayev vəzifədən uzaqlaşdırılıb. Onun Antalyadakı sammitdə iştirakı siyasi həyata qayıdış kimi dəyərləndirilə bilər.

**Nazarbayevin Türkiyəyə dəvət olunmasını "Şərq"ə şərh edən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli qeyd edib ki, Rəcəb Tayyib Ərdoğan bununla incə mesaj verdi:**

"Bunlar Qazaxıstanda baş verənlərdən sonra Nazarbayevin ictimaiyyətdə və xaricdə ilk görüntüləri idi. Ərdoğan demək istəyir ki, dövlətin rəsmisi olaraq Tokayevi yox, Nazarbayevi görür. Qazaxıstandakı son hadisələr Türkiyə, Azərbaycan və Turan birliyinə ziyan verib. Çünki hakimiyyətə kimin gəlməyindən asılı olmayaraq rusların ordu qismində həmin hadisələrdə iştirakı baş verdi. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilk dəfə başqa ölkəyə daxil olub. Guya, asayişi pozanların qarşısını aldı. Bir sözlə, bu dəvət Nazarbayevin blokadadan çıxıb siyasi həyata qayıdışıdır".

**Cəmilə Əzim**

# Çörəyin bahalaşması gözləniləndir

## Çünki Rusiya taxılın qiymətini artırmağa məcbur olacaq

**Ukraynadakı vəziyyət artıq bu il dünyada ərzaq böhranına səbəb ola bilər. Fransanın Kənd təsərrüfatı və ərzaq naziri Julyen Denormandi bununla bağlı öz narahatçılığını ifadə edib.**

O deyib ki, baş verən hadisələr qiymətlərin artımına gətirib çıxara bilər ki, bu da malqara yeminə təsir göstərəcək.

"Aralıq dənizi rayonunda Rusiya və Ukraynadan olan buğda ixracından asılı olan çox sayda ölkə yerləşir", - deyə Denormandi qeyd edib.

Onun sözlərinə görə, Qətər, Ruanda, Qırğızıstan və Misir kimi ölkələrin Rusiyadan olan buğda tədarükündən 80 faiz, Türkiyə isə 70 faiz asılıdır. Bundan başqa, Gürcüstana buğda ununun təxminən 90 faizi Rusiyadan gəlir.

O, yaxın 1,5 ildə ərzaq böhranından yaxa qurtarmaq üçün addımlar atmağa dair çağırış edib.



***"Ərzaq qıtlığı, bahalaşma Azərbaycandan da yan keçməyəcək"***

Qeyd edək ki, dünyada bahalaşma hər sahədə kəskin surətdə artıb. Rusiyanın işğalçı siyasəti bu prosesə daha çox təsir edir. Təəssüf ki, savaşlar həmişə özü ilə birlikdə fəlakətlər gətirir. Hətta qalib gələn tərəf belə müharibənin əziyyətini çəkir. Regiondakı gərgin vəziyyətin bitməməsi növbəti qiymət artımlarını daha da sürətləndirəcək.

**İqtisadçı-ekspert Rəşad Həsənov "Şərq"ə açıqlamasında Rusiya və Ukrayna məsələsinin ərzaqların bahalaşmasını sürətləndirdiyini izah edib:**

"Dünya bazarında buğda 40 faiz, soya yağı 26 faiz, qarğıdalı və misir unları 20 faiz bahalaşıb. Dövlətlərin həmin qidalarla təchiz olunmasında bu iki ölkə əsas rol oynayır. Ukraynada istehsalat pozulub. Bu o deməkdir ki, növbəti mövsümdə məhsul təşviq edə bilməyəcək. Sanksiyalar üzündən qıtlıq müşahidə oluna bilər". Ekspert bildirib ki, Rusiya hökuməti ölkənin alternativ istiqamətlərdə azalan gəlirlərinin kompensasiyası məqsədi ilə taxılın ixracı ilə bağlı təsdiq etdiyi rüsumu artıracaq:

"Yəni taxıl bazarda daha yüksək qiymətlə təqdim olunacaq. Həm də çalışacaq, kvota tətbiq etsin. Onsuz da, pandemiya qiymətlərin yüksəlməsinə gətirib çıxartdı. BMT-nin Ərzaq Tədarükü Təşkilatının hesabatına görə, 36 faiz ilə son 40 ildə artımın pik həddi görsənib. Sonra da bu müharibə dünyada, o cümlədən Azərbaycanda bahalaşmanı kəskin sürətləndirdi".

**R.Həsənov Azərbaycandakı vəziyyətə də diqqət çəkib:**

"Biz 85-92 faiz taxıl idxalında Rusiyadan asılı ölkəyik. Düzdür, ilk dövrlərdə ola bilsin ki, rəsmi Moskva müvafiq problemləri, çətinlikləri və kvotaları məhz dost olmayan ölkələrə tətbiq etsin. Amma onun gəlirləri azalır. Alternativ mənbələrdən enerji resurslarını sata bilmir. Ona görə, çalışacaq ki, əlindəki məhsulların ixracından gəlir əldə etsin. Rusiyada istehsal prosesi pozulacaq. Çünki texnologiyanın idxalı məhdudlaşdırılır. Belə olanda istehsalat aşağı düşəcək. Bu da məhsulu bahalaşdıracaq. Nəticədə Azərbaycandakı qiymətlərə təzyiq göstərəcək".

**Cəmilə Əzim**

# "Türkiyə-İsrail əlaqələrinin normallaşmasında Azərbaycanın rolu böyükdür"

## Arye Qut: "Prezident Hersoqun Türkiyəyə səfəri Təl-Əvivin Bakı və Ankara ilə strateji əməkdaşlığına böyük təkan verəcək"

**Martın 9-da İsrail Prezidenti İshaq Hersoq Ankaraya səfərə gələrək türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüş keçirib. Liderlər arasında əvvəlcə təkbətək, sonra geniş tərkibdə görüş olub. İsrailli həmkarı ilə səmərəli müzakirələr apardıqlarını bildirən prezident Ərdoğan tarixi səfərin Türkiyə-İsrail münasibətlərində yeni dönüş nöqtəsi olacağına inandığını deyib.**



Ərdoğan əməkdaşlıq əlaqələrini yüksək dəyərləndirib. Yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən İsrail Prezidenti İshaq Hersoq da bildirib ki, onun məqsədi iki ölkə və xalqlar arasında dostluq münasibətlərinin genişlənməsinin təməlini qoymaqdır: "Biz birlikdə gələcəyə baxmaq yolunu seçmişik. Anlaşılmazlıqları gələcəyə baxaraq aradan qaldıracağıq". Dövlət başçıları enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığa hazır olduqlarını bildiriblər. Türkiyə hökumət üzvlərinin İsrail və Fələstinə səfəri ilə bağlı razılıq əldə olunub. Qeyd edək ki, bu, İsrail prezidenti qismində son 14 ildə Türkiyəyə ilk gəlişdir. Sonuncu dəfə 2008-ci ildə prezident Şimon Peres Türkiyəyə səfər edib. Ekspertlər hesab edirlər ki, bu səfər Türkiyə-İsrail münasibətlərinin normallaşması baxımından mühüm hadisədir. Yeni əməkdaşlıq münasibətləri gərginliyi azalda, mövcud vəziyyəti tamamilə dəyişə bilər. **Mühüm səfər və görüşlə bağlı "Şərq"ə danışan "İsraildə Azərbaycan Evi"nin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki** nümayəndəliyinin icraçı direktoru, beynəlxalq münasibətlər sahəsində ekspert Arye Qut deyib ki, Türkiyə ilə İsrail arasında əməkdaşlıq üçün çoxşaxəli perspektivlər mövcuddur. Ekspertin sözlərinə görə, regionun iki inkişaf etmiş müasir dövlətinin faydalı münasibətləri təkcə qarşılıqlı əlaqələr baxımından deyil, bölgədə çoxtərəfli əməkdaşlıq üçün də səmərəlidir...

**- Tarixi səfərlə bağlı düşüncələriniz nədir? Uzunmüddətli gərginlikdən sonra dost və qardaş iki ölkə arasında münasibətlər yenidən normallaşma mərhələsinə qədəm qoyub deyə bilərikmi?**

- İsrail-Türkiyə münasibətlərinin normallaşma yoluna qədəm qoyması İsraildəki Azərbaycan diasporasını çox sevindirir. Hər zaman arzu etmişik ki, Təl-Əvivlə Ankara arasında münasibətlər ən yüksək səviyyədə olsun. Bu baxımdan İsrail Prezidenti İshaq Hersoqun Türkiyəyə səfərinin siyasi əhəmiyyəti böyükdür. 14 ilə yaxındır ki, İsraillə Türkiyə arasında əlaqələrdə ciddi problemlər var idi. Ötən müddət ərzində bir sıra təşəbbüslər emosional baxımdan müsbət nəticələnmədi. 14 ildən sonra tarixi günə şahidlik etdik. Açığı, tərəflər arasında istiləşmə prosesi 4-5 ay əvvəl başlayıb. Ötən ayın əvvəli İsrail prezidenti Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğana zəng etmişdi. Daha sonra Ərdoğan israilli həmkarı ilə telefonla danışmışdı. Məhz bndan sonra əlaqələr başladı və dünən kuliminasiya nöqtəsinə çatdı. Cənab Ərdoğan İsrail prezidentini çox yüksək səviyyədə qəbul etdi. İsraildə parlament respublikası idarəetmə üsulu olduğuna görə, prezident vəzifəsi bir qədər nominal xarakter daşıyır. Amma Hersoq İsrail prezidenti olandan sonra bir neçə ölkəyə önəmli səfərlər reallaşdırıb. Bu da ondan xəbər verir ki, İshaq Hersoq real və mühüm işlər görmək üçün prezident olub. Türkiyə ilə münasibətlərin normallaşma prosesində də Hersoqun rolu danılmazdır. İsrail prezidentinin Azərbaycana da böyük simpatiyası var.

**- Liderlərin görüşü Türkiyə-İsrail arasında qarşılıqlı rəsmi səfərləri intensivləşdirəcəkmi?**

- Prezidentin səfərindən sonra iki ölkə arasında qarşılıqlı addımlar atılacaq. Öncə Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu İsrailə gələcək. Bu da mühüm səfər olacaq. Ondan sonra hər iki dövlət qarşılıqlı şəkildə səfirləri təyin edəcəklər. Hər iki ölkədə səfirliklər olsa da, səfirlər yoxdur. Səfirlərin təyinatı ikili əlaqələrə siyasi-diplomatik təkan verəcək. Türkiyə və İsrailin regional maraqları da var. Görüş zamanı liderlər ifadə etdilər ki, hərbi sənaye, yüksək texnologiya, səhiyyə və digər sahələrdə iki ölkənin əməkdaşlığı mümkündür. Türkiyə maraqlıdır ki, İsrail qazını daşıyan boru kəməri məhz onun ərazisindən keçsin. İsrail son zamanlar daha çox Yunanıstan və Kiprlə danışıqlar aparırdı. Amma Təl-Əviv görür ki, real güc Türkiyədədir.

**- İki ölkə arasında iqtisadi əlaqələrin əhəmiyyətli dərəcədə olduğu deyilir. Hətta diplomatik gərginlik yaşandığı dövrdə belə iqtisadi münasibətlər kəsilməyib...**

- İqtisadi əlaqələr 8 milyard dollara yaxındır. Ərdoğanla Hersoqun müzakirələri zamanı vurğulandı ki, iki ölkə arasında ticarət dövriyyəsini 10 milyarda çatdırmaq qərarı alınıb. Bu, çox böyük rəqəmdir. Mən vaxtı ilə İsraildə Türkiyə səfirliyində çalışmışam və bu işlərin içində olmuşam. 2006-07-ci illərdə iki dövlət arasında ticarət dövriyyəsi 3 milyard dollar civarında idi. Əlaqələrin normallaşmasından sonra iqtisadi dövriyyənin daha da artacağına şübhə yoxdur. Əsas münasibətlərin qurulmasında ilk addımın atılması, siyasi düşüncədir. Siyasətdə emosiyaya qapılmaq olmaz. Siyasətdə real maraqlar var.

**- İsrail-Türkiyə münasibətlərinin normallaşmasında Azərbaycanın vasitəçiliyi də gündəmə gətirilir. Bu məsələni necə şərh edərdiniz?**

- Türkiyə-İsrail əlaqələrinin normal məcraya keçməsində Azərbaycanın rolu böyükdür. Prosesi yaxından izləyən bir şəxs kimi bilirəm ki, rəsmi Bakı iki ölkə arasında təmasların qurulmasında ciddi addımlar atıb. İsraillə sıx əməkdaşlığa hər zaman böyük önəm verən Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan Türkiyə-İsrail əlaqələrinin yenidən normala dönməsinə öz töhfəsini vermək və prosesdə mediatr rolunu oynamaq istəyir. Azərbaycan dövlət başçısının təşəbbüsü müsbət nəticəsini verməkdədir. Bu yaxında "İsraildə Azərbaycan Evi" olaraq Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı tədbir keçirtdik. Mən anım mərasiminə Türkiyənin diplomatik korpusunun nümayəndələrini də dəvət etdim. Səfirliyin bütün əməkdaşları həmin tədbirdə iştirak etdi. Bunu onu göstərir ki, İsrailin Azərbaycan və Türkiyə birgə əməkdaşlığı mümkündür və perspektivi var. Prezident Hersoqun Türkiyəyə səfəri Təl-Əvivin Bakı və Ankara ilə strateji əməkdaşlığına böyük təkan verəcək. Türkiyənin İsraillə münasibətləri normal mərhələyə keçəndən sonra üç ölkənin birgə əməkdaşlığının da şahidi ola biləcəyik.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# "Yaşıl Liman" siyasəti bizi uğura aparacaq

### Əsas məqsəd regionda mənfi ekoloji təsirləri minimuma endirməkdir

**“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC 2019-cu ildən “Xəzər dənizi regionunda yaşıl limanların və bağlılığın təşviqi” layihəsinin icrasına başlayıb. Bakı Limanı və Avropa İttifaqının birgə layihəsi “Yaşıl və ağıllı liman kompleksi” yaratmaqla davamlı inkişaf məqsədlərinə və regionda inklüziv iqtisadi inkişafa töhfə vermək məqsədi daşıyırdı. Həmçinin, Avropa İttifaqının Bakı Limanı ilə birgə 2020-ci ildən icra olunan “Bakı Limanının potensialının gücləndirilməsinə dəstək” layihəsinin ikinci fazası da artıq uğurla başa çatıb.**

Bu münasibətlə dünən “Hyatt Regency Baku” otelində Bakı Limanının, Avropa İttifaqının, dövlət və beynəlxalq təşkilatlarının və media nümayəndələrinin iştirakı ilə “Yaşıl Limanlar və liman idarəedilməsində yeni üsullar” mövzusunda qeyd olunan layihənin bağlanış mərasimi təşkil olunub. Tədbirdə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin (Bakı Limanı) Baş direktoru Taleh Ziyadov və Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin Birinci konsulu, Əməkdaşlıq üzrə rəhbəri Viktor Bojkov açılış nitqi ilə çıxış edərək layihənin strateji məqsədləri və gələcək perspektivlər haqqında iştirakçıları məlumatlandırıblar. Layihənin əsas məqsədi 2020-2022-ci illər üzrə Bakı Limanının strateji planı və “Yaşıl Liman” konsepsiyasının həyata keçirilməsində Limanın imkanlarını genişləndirmək olub. Layihə çərçivəsində həmçinin, yeni beynəlxalq sertifikatların əldə olunması, biznes proseslərinin optimallaşdırılması üçün liman əməliyyatlarının, o cümlədən insan resursları sisteminin rəqəmsallaşdırılması, ticarət və investisiya fəaliyyətlərinin gücləndirilməsi, xüsusi ilə inteqrasiya olunmuş logistik idarəetmə sisteminin inkişafı və Orta Dəhliz boyunca bütün təchizat zəncirini birləşdirmək üçün rəqəmsal platformanın genişləndirilməsi istiqamətində mühüm işlər aparılıb. Eyni zamanda, layihənin nəticəsi olaraq Bakı Limanı yenidən ISO 14001:2015 sertifikatı əldə edib. Bu sertifikat ətraf mühitin mühafizəsi üzrə idarəetmə standartı olub müəssisədə ətraf mühitin mühafizəsinin təmin edilməsi məqsədilə sistemli əməliyyatların qurulmasını və eko-sistemin qorunması üçün dayanıqlı fəaliyyətlərin aparılmasını özündə ehtiva edir. Bununla yanaşı, Bakı Limanı regionda ilk dəfə olaraq 2019-cu ildə Avropa Dəniz Limanları Təşkilatının (European Sea Ports Organization - ESPO) "EcoPorts" sertifikatına layiq görülüb və ötən il layihə çərçivəsində bu resertifikasiyadan da Bakı Limanı uğurla keçib. Beləliklə, Azərbaycan dünya üzrə ərazisində qeyd olunan sertifikatı almış 24 ölkə arasında öz yerini alıb və Bakı Limanı regionun ilk “Yaşıl Liman” statusuna layiq görülüb. ATƏT-in iqtisadi və ətraf mühit əlaqələndiricisi səfir Vuk Zugic isə bildirib ki, enerji təhlükəsizliyi, rəqəmsallaşdırma və bağlılıq təmsil etdiyi qurumun müfəssəl təhlükəsizlik konsepsiyasının mühüm bir hissəsidir: “Çox şadam ki, bu gün ATƏT-in Bakı Limanı ilə başladığı layihə Azərbaycan, Qazaxıstan və Türkmənistanın yaşıl liman və bağlılıq mövzularında Xəzər dənizində mövqelərini gücləndirəcək”.

**“Yaşıl Liman” layihəsi ilə bağlı fikirlərini “Şərq”lə bölüşən ”Altay” Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin sədri, ”Ekoloq Jurnalistlər Birliyi”nin üzvü Elçin Bayramlı qeyd etdi ki, bu, Xəzər regionunda ətraf mühitin qorunması və liman əməliyyatlarını sürətləndirilməsi baxımından mühüm addımdır:**



- Tədbirdə qeyd olundu ki, Bakı limanında tətbiq edilən əməliyyat sistemi, sərnişinlər üçün hazırlanmış onlayn bilet sistemi, əldə olunan ISO 9001:2015 keyfiyyət, ISO 14001:2015 ətraf mühiti idarəetmə və bu il üçün nəzərdə tutulmuş "EcoPorts PERS" ekoloji sertifikatı bu qurumun zamanın tələbinə uyğun fəaliyyətini göstərir. Layihə çərçivəsində Bakı, Aktau və Türkmənbaşı limanlarını birləşdirəcək limanın avtomatlaşma və rəqəmsallaşma proseslərinin yol xəritəsi, bərpa olunan enerjidən istifadəsi imkanlarının araşdırılması üçün müvafiq texniki-iqtisadi əsaslandırma hazırlanıb. Bu o deməkdir ki, rəqabət üstünlüyü əldə etmək istəyən və ya ekologiya baxımından faydalı fəaliyyəti artırmaq niyyətində olan təşkilatlar məsuliyyətli, davamlı ekoloji təcrübələri tətbiq edərək daha çox uğur qazana bilərlər. Əsas məqsəd regionda mənfi ekoloji təsirləri minimuma endirməkdir. Bunun üçün də davamlılığı dəstəkləyən siyasət və təcrübələri tətbiq edərək regionda aparıcı “Yaşıl Liman”a çevrilməkdir. Hədəfə çatmaq üçün ekoloji, sosial və iqtisadi amilləri diqqətlə balanslaşdıraraq, limanın fəaliyyətində ekoloji cəhətdən təmiz metodların tətbiqinə nail olunmalıdır. Bakı Limanı tərəfindən müəyyənləşdirilmiş ”Yaşıl Liman” siyasətinin beş rəhbər prinsipi var. Bunlar - Bakı Limanının ekoloji resurslardan rasional istifadə və normativ tələblərə uyğunluqda lider kimi fərqlənməsini təmin etmək. Yerli cəmiyyəti və ətraf mühiti liman əməliyyatlarının zərərli təsirlərindən qorumaq. Liman əməliyyatlarının mənfi təsirini minimuma endirmək və qabaqcıl texnologiya həllərini araşdırmaq üçün ən yaxşı texnologiyalardan istifadə etmək. Terminalın tərtibatında, inkişafında və bütün əməliyyatlarda davamlılığı təşviq etmək. Limanın inkişafı və ətraf mühitin müdafiəsi proqramları barədə ictimaiyyətin maarifləndirilməsi və fəaliyyətə cəlb edilməsi yolu ilə dayanıqlılıq proqramları ilə bağlı məlumatlılığı artırmaq. “Yaşıl Liman” layihəsinin məqsədi liman əməliyyatları zamanı atmosferə zərərli tullantıların azaldılması, çirklənmiş torpaqların və liman ərazisindəki çöküntülərin yenidən faydalı istifadə üçün kənarlaşdırılması, emal edilməsi və ya yararlı vəziyyətə gətirilməsi, Ələt hövzəsi ətrafında suyun keyfiyyətinin yaxşılaşdırılması, limanın ətrafında su ekosistemlərinin və dəniz arealındakı canlıların mühafizəsi və bərpası, həmçinin, cəmiyyətin liman əməliyyatları və ətraf mühitin mühafizəsi proqramları barədə proseslərə cəlb olunması və maarifləndirilməsi, bütün liman ərazisində layihələndirmə və tikinti, istismar və inzibati işlərdə dayanıqlı prinsiplərin tətbiqi, dayanıqlı prinsiplərlə tullantıların idarə edilməsi, təkrar emalı və alternativ enerji mənbələrindən istifadə daxildir. Bütün bu şərtlər yerinə yetirilərsə, məqsədlərə də nail olunar və liman əməliyyatlarının ekoloji təmiz tətbiqi reallaşar.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Neftin qiyməti 250 dollara çata bilər

### Bahalaşmanın mənfi tərəfi odur ki, inflyasiyaya səbəb olur



**Azərbaycan nefti bahalaşıb. ”Azeri LT CIF” markalı xam neftin 1 barelinin qiyməti 7,28 ABŞ dollar, yaxud 5,7 faiz artıb.**

Nəticədə dünya bazarında Azərbaycan neftinin bir barelinin qiyməti 135,99 ABŞ dolları təşkil edib. Xatırladaq ki, ”Azeri Light” markalı neftin bir barelinin qiyməti 2020-ci ilin aprel ayında minimal səviyyədə - 15,81 dollar olub, 2008-ci ilin iyulunda isə maksimum qiymətə - 149,66 dollara satılıb.

Qiymətlərin artmasında əsas səbəblərdən biri Rusiya və Ukrayna arasındakı müharibədir. Çünki bir çox ölkə rəsmi Moskvanın işğalçı rejiminə görə ona sanksiyalar, cəza tədbirləri, qadağalar və məhdudiyyətlər tətbiq edir. Bu da Azərbaycan neftindən yan keçməyib. Qiymətlərin sabitləşəcəyi və ya artacağı məlum deyil. ”PSG Kapital İnvestisiya Şirkəti” QSC-nin direktor müavini Nəriman Yaqubov Azərbaycan nefti ilə bağlı ”Şərq”ə açıqlamasında bildirib ki, təxmini dünya neftinin 9-10 faizini Amerika ixrac edir:

”Amma ”OPEK+”in qərar layihəsi hələ təsdiqlənməyib. Müzakirə olundu ki, təsdiqlənsə neftin təklifində problem yaranır. Ona görə də qiymətlər artıb. Onun təsdiqlənəcəyi halda ABŞ Səudiyyə Ərəbistanı ilə görüş təşkil etmək istəyir ki, qarşı tərəfi kompensasiya edə bilsin. Əgər alınmasa, neftin qiyməti qısa müddətdə artacaq. Bu, 250 dollara çata bilər. Yüksək qiymət tələbdə azalma əmələ gətirir”.

**N.Yaqubov bildirib ki, növbəti 3-6 ay ərzində yüksək qiymətlər davam edəcək:**

”Buna görə də Azərbaycan neftinin də qiyməti yüksək ola bilər. Bunun müsbət tərəfləri var. Məsələn, ölkənin gəlirlərinin böyük bir hissəsi tam formalaşır. İstər Dövlət Neft Fondunda, istər büdcəyə daxilolmalarda artımlar görsənəcək. Həm də Azərbaycanın valyuta mövqeyi yaxşılaşır”.

N.Yaqubov izah edib ki, bizdə idxalın həcmi çox yüksəkdir:

”Neftin qiymətinin bahalaşması inflyasiyaya səbəb olur. Onsuz da dünyanın bir çox ölkəsində yüksəkdir. Bu faktorlar bir-birini balanslaşdırmalıdır. Qısa müddətdə pozitiv faktordur. Lakin perspektivdə hansı nəticələri verəcəyi qaranlıqdır”.

**Cəmilə Əzim**

# Sanksiyalar bütün maliyyə sistemini çökdürüb

### Rusiya iqtisadiyyatının üçdə birini itirəcək




**Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov bildirib ki, Rusiyaya qarşı belə iqtisadi müharibə olmamışdı, görünməmiş vəziyyətdir: ”Hazırda proqnozlar vermək deyil, tədbirlər görmək lazımdır. İndiki zamanda Rusiya iqtisadiyyatına kifayət qədər şokedici xarici təsir var. Amma bu vəziyyət sabitləşəcək. Hakimiyyət bunun üçün bütün önləyici işləri görür”.**

Rusiyanın Ukraynaya qarşı müharibəsinin cəmi ikinci həftəsində dolların satışı bəzi banklarda 300 rubla qədər yüksəlib. Sosial şəbəkələrdə bu faktı əks etdirən bank monitorinqinin məlumatları paylaşılıb. Qara bazarda isə bir dolların hətta 400 rubla çatdığı iddia edilir.

Xatırladaq ki, Rusiya Mərkəzi Bankı yaxın 6 ay ərzində banklara əhaliyə valyuta satmağı qadağan edib.

**İqtisadçı-ekspert Ruslan Atakişiyev ”Şərq”ə açıqlamasında qeyd edib ki, sanksiyaların həyata keçirilməsində məqsəd Rusiyanın diqqətini özünün sosial-iqtisadi problemlərinə yönəltməkdir:**

”İstənilən bir ölkə müharibə zamanı itirəcəkləri və qazanacaqlarını göz önünə alıb, addım atır. Təkcə Rusiya yox, başqa dövlətlər də iqtisadi problemlərdən çıxış yolları tapa bilər. Bu, ölkənin, iqtisadçıların operativ qərar verməsindən asılıdır. Qərbin niyyəti iqtisadi narahatlıq yaratmaqdır. Amma iqtisadiyyatın tamamilə məhv olacağını hər hansı ölkə üçün demək mümkün olmaz. Alternativlər mövcuddur, genişdir”.

**İqtisadçı Xalid Kərimli isə vurğulayıb ki, tətbiq olunan sanksiyalar Rusiya iqtisadiyyatı üçün analoqsuzdur:**

”Demək olar ki, maliyyə sistemi iflic olunub. Mərkəzi bankın, aparıcı bankların rezervləri, valyuta hesabları dondurulub. Rusiya vətəndaşları ödənişlər üçün öz bank kartlarından istifadə edə bilmirlər. Visa və MasterCard kartları bloklanıb. Rusiyanın əmtəə ixracına mane olmasa da, ciddi şəkildə valyuta çıxışı dayandırılıb. Sanksiyalar da davam edir. Qiymətləndirmələrə görə, cəza tədbirləri ümumi Rusiya iqtisadiyyatının üçdə birinin itirilməsinə səbəb ola bilər. Hətta bu il üçün müharibədən əvvəl rəsmi Moskvada iqtisadi artım gözlənilirdi. Əksinə olub, beynəlxalq təşkilatlar 7-10 faizlik geriləmə proqnozlaşdırıb. Ölkədəki məhdudlar Rusiya iqtisadiyyatının təcrid edilməsi ilə nəticələnəcək. Təbii ki, Rusiya bir sıra ölkələrlə əlaqələr saxlayacaq. Eyni zamanda da Rusiyanın nəzərdə tutulan ciddi inkişafına mane olacaq. Şimal qonşumuzun inkişafı sanksiyaların davam edəcəyi müddətdən asılıdır. İllərlə sürsə, ölkə həm texnoloji inkişafdan qalacaq, həm də dövlətin maliyyə baxımdan çətinlik çəkdiyinin şahidi olacağıq”.

**İqtisadçı bunu da əlavə edib ki, Rusiya iqtisadiyyatı dünya iqtisadiyyatının cəmi 1,7 faizini təşkil edir:** ”Amma rəsmi Moskvaya qarşı birləşmiş dövlətlər dünya iqtisadiyyatının 50 faizə qədərini təşkil edir. Amerika və müttəfiqləri bu prosesdə Rusiyaya qarşı səylərini qəti surətdə birləşdiriblər. Lakin bütün bu cəza tədbirləri Rusiya iqtisadiyyatını geri aparsa da, tam olaraq çökdürə bilməyəcək. Çünki şimal qonşumuzun strateji əmtəə satışları var. Beləliklə, Rusiya bu kanallardan istifadə edərək cari ehtiyaclarını ödəyə biləcək”.

**Sücayət Mehti**

# Müharibə tikinti materiallarının qiymətini bahalaşdırdı

### “Bir müddət sonra mənzil qiymətlərində bahalaşma müşahidə ediləcək”

**Rusiya Ukraynada hərbi əməliyyatlara başladığı üçün bir çox dövlətlər tərəfindən sanksiyaya məruz qalır. Rusiyaya tətbiq edilən cəza sistemi Azərbaycanın tikinti sektoruna da təsirini göstərir.**

Tikinti bazarında bir çox material bahalaşıb. Əsas mallardan biri hesab edilən taxtanın qiyməti xeyli yüksəlib. Sahibkarların bildirdiyinə görə, hazırda istifadə edilən taxtalar müharibədən əvvəl yüklənmiş materiallardır:

”Materialın gəlməməsinə hazırkı səbəb vaqonların olmamasıdır. Rusiya vaqonların əksəriyyətinə silah-sursat doldurub Ukrayna sərhədinə göndərir. Ona görə də Azərbaycana demək olar ki, taxta gəlmir. Ölkəmizə taxta yalnız Ukrayna və Rusiyadan gəlirdi. Hər iki istiqamətdə iş dayanıb. Bu məsələlər səbəbindən hazırda bazarda taxtanın bir kubunun qiyməti 450-480 manatdır. Əvvəl 300-350 manata satılırdı”.

Tikinti mallarının bahalaşmasına münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə bildirib ki, bir müddət sonra mənzil qiymətlərində bahalaşma müşahidə ediləcək:

”Tikinti bazarında malların bahalaşması maya dəyərini yüksəldir. Bu da evlərin tikinti, təmir qiymətlərinin artmasına səbəb olacaq. Bunun qarşısının alınması üçün alternativ bazara ehtiyacımız var. Lakin başqa bazar tapmaq çox çətindir.



Avropanın tikinti malları Finlandiya qarşılayır. Finlandiyadan material almaq sərf etmir. Çünki həm baha qiymətə təklif edilir, həm də daşınma xərcləri çoxdur. Yaxın ətrafımızda başqa sərfəli bazar da yoxdur”.

**Xanlar Əlibəy**

# İntihar edən kişilərin sayı qadınlardan çoxdur



## Fərqanə Mehmanqızı: “Kişilərin üzərinə böyük məsuliyyətlər qoyulduğu üçün psixoloji problemlərdən daha çox əziyyət çəkirlər”

**Son zamanlar dünyada intihar hallarının artması müşahidə olunur. COVID-19 bəlası isə insanların psixologiyasına ağır zərbə vurdu. Psixologiyası zərər görən insanlar çıxış yolunu yanlış da olsa, intiharda görməyə başladılar.**

Ölkəmizdə də intihar edənlərin sayı artıb. Nazirlər Kabineti hesabatında 2021-ci ildəki intihar statistikasını paylaşıb. Hesabata görə, ötən il ölkəmizdə 612 özünü öldürmə hadisəsi qeydə alınıb. Baş verən intihar hadisəsindən 438-i kişi, 147-si isə qadın tərəfindən törədilib.

Onlardan 313-ü evli, 299-u isə subay olub.

**İntiharlara səbəb olan amilləri ”Şərq”ə açıqlayan psixoloq Fərqanə Mehmanqızı bildirib ki, intihar etmək insanların ruh halı ilə bağlıdır:**

”Özünü təsdiq edə bilməyən, natamamlıq kompleksi yaşayan, karyerasında, həyatında məqsədlərini tapa bilməyən insanlar özlərini öldürməyə meyilli olurlar. Bunlar da zamanla özünə inam əskikliyinə gətirib çıxarır.

Bir müddət sonra empatiya bacarığı da aşağı düşür. Daha sonra aqressiyadan əziyyət çəkməyə başlayırlar. Cəmiyyət tərəfindən təsdiq edilməmə qorxusunun da buna təsiri böyükdür. Kişilərin üzərinə böyük məsuliyyətlər qoyulduğu üçün psixoloji problemlərdən daha çox əziyyət çəkirlər. Amma hər insanın fərqli intihar səbəbi olur. Ona görə də intihar hadisələri individual şəkildə araşdırılmalıdır”.

*Psixoloqun fikrincə, pandemiya insanlarda psixoloji problemlər yaratdı:*

”İnsanlıq yaranandan bəri ən böyük cəza həbsdir. Pandemiya səbəbindən də insanlar evlərinə həbs olundu. Bu da onların assosial olmalarına gətirib çıxardı. Cəmiyyətdən təcrid olunma psixologiyaya mənfi təsir göstərir. Həmçinin pandemiya səbəbindən insanlarda ölüm qorxusu yarandı. Ölməkdən, xəstələnməkdən qorxmaq daxili və xarici aqressiyaya gətirib çıxarır. Kimsə öskürən kimi həssaslaşırdıq ki, xəstələnərik. Bu da psixoloji həssaslığı artırdı. İnsanlarda travma yaratdı”.

**Xanlar Əlibəy**

# Flora və Afət arasında qalmaqal

”Şərəf və ləyaqətimi təhqir etdiyi üçün onu məhkəməyə vermişəm”



**Müğənni Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında şikayət Xalq artisti Flora Kərimova tərəfindən verilib.**

Bu barədə APA-ya açıqlamasında Flora Kərimova bildirib.

Xalq artistinin sözlərinə görə, Afət Fərmanqızı onun müalicəsi barədə qeyri-etik ifadələr işlədib:

**”Mən Xalq artistiyəm, sənətkaram. Afət Fərmanqızı mənim şərəf və ləyaqətimi təhqir edib. Həmçinin, ailə üzvlərim barəsində etik olmayan ifadələr işlədib. Ümid edirəm ki, məhkəmə mənim nüfuzumu və təhqir olunmağımı əsaslı hesab edəcək, ədalətli qərar verəcək”.**


**Elanlar!**

Seyidov Mirələkbər Mirismayıl oğlunun adına verilmiş Müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cəlilov Ələkbər Elşad oğlunun adına ZH № 011915 xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Zəngilan rayonu 29 nömrəli tam orta məktəbin kollektivi uzun illər məktəbin direktoru vəzifəsində çalışmış, Respublikanın Əməkdar müəllimi Məhəmməd Bəşir oğlu Məmmədovun vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.


# Böyük fəlakətin astanasındayıq

## “Kürdə suyun bir damcısı belə hədər getməməlidir”

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva Kür çayındakı vəziyyətdən danışıb. Onun sözlərinə görə, son 10 ildə Kür çayı ilə ölkəyə daxil olan suyun həcmi 31 faiz azalıb:**

”Təəssüf ki, ölkəmizin su ehtiyatlarında azalma müşahidə olunur. İqlim dəyişikliyi ilə bağlı olan fəsadlar özünü daha da göstərməkdədir. Aparılan son müşahidələrə görə, Kür vasitəsilə Azərbaycana daxil olan suyun həcmi 27 faiz azalıb. Kür çayının daha aşağı olan məntəqələrində suyunun azalması artıq 53 faiz təşkil edir: ”Kürün suyundan ifrat dərəcə istifadə bu cür gərgin vəziyyəti ortaya qoyur”.



**Kür çayındakı mövcud vəziyyətlə bağlı ”Şərq”ə danışan ”Rüzgar” Ekoloji İctimai Birliyinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunun şöbə rəisi, ekoloq İslam Mustafayev bildirib ki, çayın bu vəziyyəti bizim üçün çox ciddi problemlər yarada bilər. O, Kürdəki vəziyyətin bu həddə çatmasının səbəblərini izah edib:**

”Birincisi, Kür çayının yuxarısında müxtəlif cür idarəetmə sistemlərinin olması, yəni bizim quyularımızı məhdudlaşdıra bilən imkanların artması mümkündür. Eyni zamanda, əkinçilik sahələrinin genişlənməsi də bir başqa səbəbdir. Ən əsas səbəb isə iqlim dəyişmələri və quraqlıqdır. Su az daxil olur, amma çox istifadə olunur. Nəticədə balans pozulub”.

**Ekoloq İ.Mustafayev hesab edir ki, çaya təcili sürətdə süni müdaxilələr etmək lazımdır:**

”Çayın suyunun Xəzər dənizinə lazımi səviyyədə tökülməsini təmin etmək vacibdir. Eyni zamanda Xəzərdən çaya suyun getməsinə imkan verməmək önəmlidir.

Suyun bir damcısı belə hədər getməməlidir. Belə olan hallarda su anbarlarının tikilməsi gündəmə gəlir. Yaxşı su anbarları olmalı və onlar vasitəsilə su idarə olunmalıdır. Su toplayıcı hövzələrdə qarın qalınlığını hesablamaq mühüm addımlardandır.

Su mənbələrində buzlaqların vəziyyətini öyrənmək lazımdır. Bir sözlə, kompleks birgə idarəetmə sistemini tətbiq etmək lazımdır. Əks halda doğrudan da çox böyük fəlakətlərlə qarşılaşacağıq”.

**Çimnaz**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Gülayın Elzaya cavabı çox gecikmədi

“Böyüklərə hörmət edən bir xanımam, sizi sevirəm”



**Müğənni Gülay Zeynallı Əməkdar artist, bəstəkar Elza Seyidcahanın iradlarına cavab verib.**

”Şərq”in məlumatına görə, sənətçi ”İnstagram” səhifəsində bəstəkarla fotosunu paylaşıb. ”Elza xanım, mən sizə və böyüklərə hörmət edən bir xanımam, sizi sevirəm”- deyə o, vurğulayıb.

*Qeyd edək ki, E.Seyidcahan onun ”Əl çəksin kədər” musiqisini ifa edən G.Zeynallıdan gileylənib. ”Əl çəksin kədər” əvəzinə, ”Əl çəhsin kədər” deyir. ”Çəhsin” sözü var? Bəstəkar kimi hər gün maşında dinləyirəm, az qala beynimə qan sızsın. Brend geyinib, özünüzü ledi kimi aparırsız. Ədəbi dilimizi də qoruyun. Hələ ”İnstagram”da yazır ki, ”mahnını pul verib almışam, ürəyim istədiyi tərzdə oxuyacam”. Özü də mahnıya az pul verib, hörmət etmişəm. Gücün çatdığın qədər al, eybi yox, söyləmişəm. Bu gün-sabah o mahnını oxuyaram, görərsiz necə oxuyurlar. Axı Gülayı sevməsəm mahnı verməzəm. Çox istəyirəm, gözəl qızımızdır”- əməkdar artist söyləyib.*

# Şəbnəm müğənnilərə səsləndi

“Mən olan toylarda siz ola bilməzsiniz”



**Müğənni Şəbnəm Tovuzlu onun ifa etdiyi janrı tənqid edən həmkarlarına cavab verib.**

Lent.az-ın canlı yayımında qonaq olan ifaçı bu sözləri vurğulayıb: ”Mənim adım gələndə ağızlarını büzənlər, məndən nə artıq ifa edirlər ki? Mən olan toylarda siz ola bilmərsiniz. Çünki siz toy idarə edə bilmirsiniz. Sizi sadəcə toya çağırırlar, gəlib 3-5 fanaqram oxuyub gedirsiz. İnsanlara düzgün musiqini təqdim edə bilmirlər. Onların heç biri Nadir Qafarzadə kimi toy apara bilməzlər. Barəmdə nəsə deyən müğənnilər Nadir Qafarzadədən artıqdı? Bunlar elə bilirlər ki, onlar getdiyi restoranlara bizi dəvət etmirlər. Yalandır, hamısında da olmuşam”.

**Məşhur türkiyəli aktrisa və müğənni Öykü Gürman Bakıda restoranların birində səhnədə çıxış edib. Oxu.az xəbər verir ki, sənətçi səhnədəki çıxışına hazırlıq zamanı ”Xudayar təsnifi”ni səsləndirilib.**



# Türkiyəli məşhur müğənni "Xudayar təsnifi"ni oxudu

Öykü Gürmanın bu ifası daha sonra sosial mediada yayılıb.

Xatırladaq ki, Xalq artisti Əlibaba Məmmədovun müəllifi olduğu mahnı daha əvvəl ”Vətən yaxşıdır” adlanırdı. O, müəllifi olduğu ”Vətən yaxşıdır” nəğməsinin şəhidimiz Xudayar Yusifzadənin xatirəsinə ehtiram əlaməti olaraq ”Xudayar təsnifi” adlandırılmasına razılıq verib.

Qeyd edək ki, Xudayar Yusifzadə 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin ”N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib və ”gizir” hərbi rütbəsi alıb.

Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edib, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub.

# 10 il cavanlaşmağa doğru...

Müğənni Kərim estetik əməliyyata hazırlaşır



**Müğənni Kərim Abbasov xəstəxanadan görüntülər paylaşıb.**

”Şərq”in məlumatına görə, o, ”İnstagram”səhifəsində video paylaşaraq ”yaşlanmağa son” deyib.

”42 yaşım var. Kök hüceyrə proseduru keçmək zamanıdır. 10 il cavanlaşmağa doğru... Allah səbəbə salsın”- deyə müğənni qeyd edib.

**Aygün**

# Faiq Ağayevin bahalı üzük kolleksiyası var



**Xalq artisti Faiq Ağayev bahalı üzük kolleksiyasından danışıb.**

”Həmin Zaur” proqramına qonaq olan müğənni bu haqda sualları cavablandırıb.

**Ağayev ”Deyirlər, Faiq Ağayevin bahalı üzük kolleksiyası var” sualına belə cavab verib:**

”Hamısı da hədiyyədir. Bir dənə ziynət əşyası almamışam. 33 ildir səhnədəym, hədiyyə edilib. Sayını bilmirəm. Aksessuar deyillər, xalis brilyantdır. Ziynət əşyalarını sevsəydim özüm alardım. Artistəm, üzərimdə alışıb-yanan nəsə olmalıdır”.

# Lalə Məmmədova ona təklif edilən məbləği bəyənmədi



**Əməkdar artist Lalə Məmmədova Türkiyədən aldığı konsert təklifindən imtina edib.**

Bu haqda stilist Elnur Həsənov ”Deməsəm olmaz” proqramında deyib. O bildirib ki, buna səbəb çox az qonorar təklif edilməsi olub:

”Çox cüzi qonorar idi: 1000-1500 manat arası idi. Hər şeyi qarşılayırdılar, amma qonorar az idi. İstəyərdim ki, biz Zeynəb Bastıqa, İrəm Dəriciyə, Gökhan Tepeyə30-40 min qonorar ödəyiriksə, bizim də sənət adamlarına onu versinlər. Hətta Sibel Cana yüz minlərlə qonorar verilir. Biz qonorarımızı dedik və onlar razılaşmadı. Bizim sənət adamları yüksək məbləğ istəməlidir. Özünü istəyən insan onların dediyi məbləğlə razılaşmır”. Elnur əlavə edib ki, konsertlərdən biri İzmirdə olmalı imiş.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 555



## Camala Ukrayna ordusu üçün 125 milyon topladı

**Ukraynanı 2016-cı ildə "Avroviziya"da təmsil edən və qalib olan Camala Rusiyanın ölkədə həyata keçirdiyi hərbi əməliyyatlara görə oranı tərk etmək məcburiyyətində qalmışdı.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, sənətçi övladlarını İstanbulda bacısının yanında qoyub, özü isə "Avroviziya 2022"nin milli seçimlərində oxumağa və Ukrayna ordusuna dəstək olmağa gedib.

Camala bu addımı ilə təkcə Almaniyadan 67 milyon avro (təxminən 125 milyon 913 min manat) vəsait yığa bilib. Bu barədə müğənni sosial şəbəkədə məlumat verib:

"Almaniyada Avroviziyanın milli seçimlərində 67 milyon avro toplandı. Bunlar hər birinizin sayəsində oldu. Vəsait Ukraynanın dəstəyinə veriləcək. Öz evimizdə yaşamaq hüququ uğrunda mübarizədə bizi dəstəkləyən hər kəsə minnətdaram. Dinc səma altında gələcək qurmaq ümidi ilə...".

## Dünyanın ən kiçik pulsuz kitabxanası istifadəyə verilib



**Dünyanın ən kiçik kitabxanaları ilk dəfə Nyu-York şəhərində oxucuların ixtiyarına verilib. Bu cür kitabxanalar yalnız bir oxucu və 40-a yaxın kitabdan ibarətdir.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, şəhər meriyasının sosial eksperimentinin məqsədi sakinlərə şəhərdəki çılğın həyat tempinə ara vermək, kağız kitablara yenidən maraq yaratmaq və onları pulsuz oxumaq imkanı verməkdir.

Kitabxanaların iş prinsipinə uyğun olaraq, hər kəs kitabı bir neçə günə götürə və ya başqası ilə dəyişə bilər. Müxtəlif dizaynerlər tərəfindən təkrar emal edilmiş materiallardan istifadə etməklə dizayn edilmiş kiçik pulsuz kitabxanaların ideyaları bütün dünyaya yayılıb.

Onlar çevrilmiş telefon köşklərində, avtobus dayanacaqlarında və hətta ictimai nəqliyyatda peyda olublar.



# Qan donduran hadisə

### "Lənətə gəlmiş çörək" kəndliləri dəli etdi





**Fransanın Grad bölgəsində kiçik bir kənd olan Pont-Saint Espritdə kəndlilər bir səhər dəhşət içində oyandılar. Kəndlilər qəribə və qorxulu yuxular danışır, qeyri-adi canlıların onlara hücum etdiyini deyir, əsəbi davranışlar sərgiləyir, hətta bir-birinə hücum çəkirdi.**

Bir çoxu gördüyü hallüsinasiyalara tab gətirə bilməyərək intihar etdi. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, bu qorxunc hadisə 16 avqust 1951-ci ildə baş vermişdi. Qan donduran bu hadisələrə kəndin çörəkçisinin səbəb olduğu deyilirdi. Deyilənə görə, çörək bişirən kişi tərkibində ergot göbələyi əmələ gəlmiş xarab, vaxtı keçmiş undan çörək bişiribmiş. Bu çörəkdən yeyənlərdə də beyin hüceyrələri zədələnib və onlar hallüsinasiya - qarabasma görməyə başlayıblar. Bu hadisə tarixdə "Lənətə gəlmiş çörək" adını alsa da, səbəbi hələ də gizli qalmaqdadır. İllərlə araşdırma aparan mütəxəssislər baş vermiş olayların əsl, elmi səbəbini hələ də tapa bilməyiblər. Kənd sakinlərinin anlaşılmaz hərəkətlərinin səbəbi nə idi? Bir çoxu əjdəha gördüyünü deyir, bəzisi ilanların ardınca süründüyünü söyləyir, hətta yeriyə bilməyən, ayaqları iflic olan birisi "gördüyü" hansısa qorxunc heyvandan sürünərək uzaqlaşmağa can atırdı. 11 yaşlı Charles Granjhon evdən çıxaraq nənəsini öldürmək istəmişdi. Gabriel Validire isə artıq özünün həyatda olmadığını, yoldaşınınsa qarnını ilanların yediyini deyirdi. Biri deyirdi ki, üstünə pələng atlanır... Özünü pəncərədən atanlar da vardı. Kəndin heyvanları da qəribə olmuşdu. İtlər daşları çeynəməyə cəhd edirdi. Ördəklər pinqvin səsi çıxarırdı. Bütün bu olanlar nəticəsində 5 nəfər vəfat etdi. 300-dən artıq sakin isə psixi xəstəxanaya yerləşdirildi. 1951-ci ilin noyabr ayında "British Medical Journal"da "Zəhərlənmənin təsiri" adlı məqalə dərc olundu. Məqalədə insanların bu qəribə davranışlarına çöreyin xəmirinin hazırlandığı çovdar ununun tərkibində erqot göbələyi deyilən zəhərli göbələyin səbəb olduğu bildirilirdi. Erqot göbələyi güclü psixi pozğunluqlar yarada bilən LSD maddəsinin tərkibində də var. Bu maddə qarabasma yaradır. Lakin bu mülahizə tam təsdiqini tapmadı. Çünki kənddəki kütləvi dəlilikdən 2 il sonra da bir neçə intihar hadisəsi baş verdi.

Yeni araşdırmalar başqa bir mülahizəni ortaya çıxardı. Demə, kəndin daxil olduğu qəsəbənin yaxınlığında o dövrdə Avropada LSD preparatları istehsal edən dərman şirkəti fəaliyyət göstərirmiş. Amerika Kəşfiyyat İdarəsi - CİA bu dərman şirkəti ilə "MK Ultra" layihəsini həyata keçirirmiş. Layihədə LSD maddəsi qəbul edənlərin davranışları, zehində baş verən dəyişikliklər öyrənilirmiş. Məsələn, LSD maddəsi verilmiş Frank Olson adlı şəxs qaldığı mehmanxananın 13-cü mərtəbəsindən özünü atmışdı. İddialara görə, CİA kəndlilərə çörəklə birlikdə LSD maddəsi verərək kütlənin nəzarət altına alına biləcəyinin mümkün olub-olmadığını öyrənməyə çalışırmış. Lakin CİA, əlbəttə ki, iddiaları heç bir zaman qəbul etmədi. Beləcə,"lənətə gəlmiş çörək" olayı da çözülməmiş qaldı.

**Məlahət Rzayeva**

## Podiumda başı dirəyə dəydi

### Üzünə tikiş qoyuldu



**26 yaşlı model Karoline Daur moda nümayişi zamanı bədbəxt hadisə ilə üzləşib.**

**Milli.Az xarici mediasına istinadən xəbər verir ki, moda nümayişinin kulisində bir yerdən digərinə qaçarkən təsadüfən başı dirəyə çırpılıb. Onun sözlərinə görə, güclü zərbədən huşunu itirib və yanındakılar təcili yardım çağırıb. Həkimlər altı saat yaralıya qulluq edib və üzünə çoxlu tikişlər vurublar. Model gözü qanlı salfetlə örtülmüş təcili yardım maşınına mindiyi kadrları izləyicilərə nümayiş etdirib.**

## Trampın qızı internetdə müzakirələrə səbəb olub

### "O yaşda niyə belə açıq-saçıq geyinmək lazımdır?"



**ABŞ-ın keçmiş prezidenti Donald Trampın qızı İvanka ictimaiyyət qarşısına açıq-saçıq geyimi ilə çıxması ilə internetdə müzakirələrə səbəb olub.**

**Milli.Az xəbər verir ki, müvafiq kadrlar və şərhlər Daily Mail tərəfindən dərc olunub.**

**Paparazzilər 40 yaşlı iş qadınını əri Jared Kuşner və üç övladı ilə birlikdə Mayamidə gəmi gəzintisində çəkiblər. İnternet istifadəçiləri məşhuru tənqid edib. "Ucuz paltar", "O yaşda niyə belə açıq-saçıq geyinmək lazımdır?", "İvanka və onun bədəni heç kimin vecinə deyil", "İvankanın 50 yaşından yuxarı görünür", "Elə hiss olunur ki, Jared İvankanın oğludur", - şərhçilər yazıb.**

## Ukraynada heykəllər hücumdan qorunur



**Rusiya-Ukrayna müharibəsinin 15-ci günündə qarşıdurmalar davam edərkən Qara dəniz sahilindəki Odessada mümkün hücuma hazırlıq davam edir.**

**Olay xəbər verir ki, agentlikləri tərəfindən çəkilmiş fotoşəkillərə görə, ukraynalılar şəhərin simvolik strukturlarından biri olan Rişelye heykəlini qum torbaları ilə mümkün bombalanmaya qarşı qoruyublar.**

**Odessanın mərkəzində məşhur Primorsky bulvarında yerləşən bu məşhur heykəl hersoq Rişelyenin təsvirini verir.**



# Sanksiyalardan xilas ola bilmədi

### Abramoviçin də var-dövlətinə "əl qoyuldu"

**Böyük Britaniya hökuməti "Çelsi" futbol klubunun sahibi, milyarder Roman Abramoviçin var-dövlətinə həbs qoyub. Səbəb bəllidir; Avropa Birliyinin Rusiyaya qarşı iqtisadi sanksiyaları, R.Abramoviçin də Prezident Putinə yaxınlığı.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, ingilis hökuməti Rusiyanın Ukraynaya hərbi müdaxiləsi başladığı vaxtdan indiyədək 7 rus sahibkarın var-dövlətinə "əl qoyub". İndi də növbə Abramoviçə çatıb. Sanksiyaların "Çelsi" klubuna nə dərəcədə təsir edəcəyi maraq doğurur. Bundan öncə sanksiyaların yaxınlaşdığını bilən Abramoviç "Çelsi"ni satışa çıxardığını bildirmişdi. Və bunu da qeyd etmişdi ki, satışdan əldə olunan gəlir Ukraynada müharibədən zərər çəkənlər üçün yaradılacaq yardım vəqfinə bağışlanacaq. Lakin Abramoviçin hətta bu xeyirxahlığı da onu sanksiyalardan xilas etmədi. Putinlə dostluğu, yardım vəqfindən "ağır" gəldi. B.Britaniya hökuməti Abramoviçin varidatına "əl qoymaq"la kifayətlənməyərək ona səyahət qadağası da tətbiq edib. "Çelsi"nin satışında da durğunluq yaranıb. Hətta işlər çətinə düşüb. "Çelsi" bu dönəmdə oyunçu transferi apara bilməyəcək, hər hansı futbolçu ilə müqavilə bağlaya bilməyəcək, indiyədək satılmış biletlər xaric, ölkə daxilində keçiriləcəyi oyunlara bilet də sata bilməyəcək.

**Məlahət**

## Özündən 9 yaş kiçik iş adamı ilə eşq yaşayır

### Defne Samyeli son geyimi ilə hər kəsi təəccübləndirib



**Son zamanlar səhnə geyimləri ilə gündəm olan Defne Samyeli son geyimi ilə hər kəsi təəccübləndirib.**

Özündən 9 yaş kiçik iş adamı Onur Arıkanla eşq yaşadığı iddiası ilə çox danışılan 49 yaşlı Defne Samyeli qara yarıqlı paltar geyinib.

Milli.Az türk mediasına istinadən xəbər verir ki, İnstaqramda 865 min izləyicisi olan Defne Samyeli cəsarətli geyindiyi paylaşımlara şərhləri bağlayıb.

## Koronavirus gözlərdə konyuktivitə səbəb ola bilər



**COVID-19 virusu gözlərdə konyuktivitin yaranmasına səbəb ola bilir.**

Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Tural Qəlbinur deyib.

O qeyd edib ki, bu zaman gözlərdə qızarıqlıq, ağrı, göynəmə, yanma və yaş axma kimi əlamətlər meydana çıxır.

"Həmçinin şəkərli diabet, hipertenziya və başqa xroniki xəstəlikləri olan insanlarda koronavirus qanın laxtalanma sistemini pozduğundan retinada qanama və başqa əlamətlər meydana çıxa bilər. Əgər xəstələrdə görmənin ani zəifləməsi baş verərsə, dərhal oftalmoloqa müraciət etməlidirlər", - deyə o bildirib.

## Virus yayılır

### COVID-19 heyvanlara keçib



**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Birləş miş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının verdiyi birgə yazılı açıqlamada COVID-19-un heyvanlar arasında yayılması məsələsi müzakirə edilib.**

Medicina.az xəbər verir ki, ÜST və onu müşayiət edən beynəlxalq təşkilatlar COVID-19-un təbiətdə yayılmasının yeni variantların ortaya çıxmasını asanlaşdıracağına dair narahatlıqlar fonunda virusun heyvanlar arasında ötürülməsini yaxından izlədiklərini açıqlayıb.

Açıqlamada bildirilib ki, virusun bəzi heyvan növləri ilə yanaşı, insandan insana da keçdiyi müşahidə edilib. Virus ferma heyvanlarına, gəlincik, bəbir, maral, xüsusən də it və pişik kimi ev heyvanlarına da keçə bilər. Bildirilib ki, COVID-19 epidemiyasının vəhşi təbiətə daxil olması narahatlıq yaradır. ÜST-ün araşdırmaları nəticəsində ABŞ-dakı maralların üçdə birinə COVID-19-un insanlar tərəfindən ötürüldüyü bildirilib. Bəyanatda 3 təşkilat bütün ölkələri heyvanlar və insanlar arasında virus sirkulyasiyası riskini və yoluxmuş heyvanlarda COVID-19-un inkişaf riskini azaltmaq üçün tədbirlər görməyə çağırıb.